Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 83 (8106) CÜMƏ AXŞAMI, 18 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Doğrulan vədlər

## İlham Əliyev xalqa və dövlətə sədaqət andına sadiq qalaraq ləyaqətli xidmət missiyasını uğurla davam etdirir

*"Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm".*

*Bir il öncə, aprelin 11-də keçirilən prezident seçkilərində xalqdan növbəti dəfə etimad mandatı alan İlham Əliyev bir həftə sonra, aprelin 18-də Milli Məclisdə Vətənə, xalqa və dövlətə sədaqət andına bu sözlərlə başladı. Hər zaman xalqın dəstəyindən güc alan, Azərbaycanı möhtəşəm zəfərlərə, qələbələrə doğru aparan lider olduğunu sübut edən İlham Əliyev ləyaqətli xidmət missiyasını şərəflə davam etdirəcəyinə söz verdi, and içdi və növbəti 7 il üçün səlahiyyətlərinin icrasına başladı.*

### Uğurlar yeni hədəflər üçün açardır

Dövlətlərin demokratiklik əmsalı sosial-iqtisadi inkişaf göstəriciləri ilə yanaşı, həm də siyasi hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir.

Bu bir həqiqətdir ki, xalqın dəstəyi ilə böyük tarixi uğurlara imza atan cənab İlham Əliyev liderlik qabiliyyəti, uzaqgörənliyi ilə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib. Bütün addımlarında vətəndaş marağını hər şeydən üstün tutması, vədinə, sözünə sadiqlik Prezidentin siyasi alternativsizliyini bir daha sübuta yetirib. Elə bütün bunların səbəbidir ki, bu gün Azərbaycanda Prezident xalqına, xalq isə öz liderinə inanır. Hər bir addımını xalqın mənafeyinə uyğun atması cənab İlham Əliyevə ümumxalq sevgisi qazandırıb.

Uğurlar isə yeni hədəflər üçün açardır deyirlər. Bəs, görəsən, ötən bir il ərzində verilən vədlər necə doğruldu? İlham Əliyev birillik prezidentlik dövründə Azərbaycanın sosial-iqtisadi yüksəlişi, əhalinin rifah halının yaxşılaşdırılması, regionların inkişafı istiqamətində hansı addımları atdı?

### Ölkənin sosial həyatında atılan inqilabi addımlar

Prezident seçkilərindən ötən bir ilə nəzər yetirsək görərik ki, iqtisadi sahədə qazanılan uğurlar ölkənin daha da inkişaf etməsi üçün yeni perspektivlər açıb və praktiki olaraq bunun nəticələri sosial sahədə islahatların aparılması üçün real zəmin yaradıb və bu da Prezidentin böyük sosial islahatlar paketinin reallaşmasını şərtləndirib.

Seçkilərdən sonra Prezidentin imzaladığı ilk fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı oldu. 2019-cu il 28 yanvar tarixli daha bir fərmanla isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsi daha da genişləndirildi. Şəhid ailələri ilə keçirilən görüş isə dövlət başçısının bu kateqoriyaya aid insanlara münasibətinin real təzahürü idi.

Prezidentin sosial sahə ilə bağlı imzaladığı digər fərman və sərəncamları - əhalinin aztəminatlı təbəqəsi, xüsusən də şəhid ailələri, əlil və müharibə veteranları, qaçqın və məcburi köçkünlər, pensiyaçı və təqaüdçülərin sosial rifah halının yaxşılaşdırılmasına xidmət edən sənədləri sosial sahədə böyük nailiyyətlər adlandırmaq olar.

İlk növbədə qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin durumunu diqqətdə saxlayan Prezident bu kateqoriyaya aid insanlara öz dəstəyini göstərir. Şəhid ailələrinə istisnasız olaraq birdəfəlik müavinətlərin verilməsi, bu kateqoriyaya aid insanlara müavinətin 242 manatdan 300 manata, həmçinin Əfqanıstan veteranlarının müavinətinin 220 manatdan 300 manata yüksəldilməsi, məcburi köçkünlərə verilən aylıq müavinətlərin 50 faiz qaldırılması bunun əyani təzahürüdür.

Minimum əməkhaqqının 38 faiz artaraq 130 manatdan 180 manata çatdırılması, minimum pensiyaların 38 faiz artaraq 116 manatdan 160 manata qədər qaldırılması, 100 minə yaxın tələbənin təqaüdünün yüksəldilməsi dövlətin iqtisadi qüdrətinin daha da yüksəldiyini bir daha təsdiqləyir.

Ardı 3-cü səh.

## Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan teatr ənənələrinin qorunub saxlanılması və dövrün tələblərinə uyğun inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə 1,2 milyon (bir milyon iki yüz min) manat, o cümlədən Azərbaycan Dövlət "Yuğ" Teatrı, Azərbaycan Dövlət Pantomima Teatrı, Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı, Şəki Dövlət Dram Teatrı, Ağdam Dövlət Dram Teatrı, Füzuli Dövlət Dram Teatrı, Qazax Dövlət Dram Teatrı, Qusar Dövlət Ləzgi Dram Teatrı, Qax rayonu Gürcü Dövlət Dram Teatrı, Gəncə Dövlət Kukla Teatrı, Qax Dövlət Kukla Teatrı və Salyan Dövlət Kukla Teatrının hər birinə 100,0 (bir yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2019-cu il*

## Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 4,0 (dörd) milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2019-cu il*



## Talassemiyasız həyata doğru

### Azərbaycanda da sosial bəlaya çevrilən talassemiyaya qarşı effektiv mübarizə Mehriban Əliyevanın şəxsi nəzarəti altındadır

Burada uşaqlar da var, yeniyetmələr də, gənclər də...

Hamısı başlarını qaldıraraq süzülərək damarlarına qarışan, onları damcı-damcı bu həyata bağlayan qan dolu qırmızı torbalara ümidlə baxır...

Onları kənardan izləyən valideynlərin üzündə isə bu kədərli və ağrılı mənzərəni izləməyin acısı həkk olunub...

"Oğlumun talassemiya xəstəsi olduğunu 3 yaşında öyrəndim. Düzdür, həmin vaxta qədər hiss edirdim ki, onda nəsə dəyişikliklər var, amma talassemiya olduğunu bilmirdim. Ümumiyyətlə, bu xəstəliyin adını heç zaman eşitməmişdim. Mənə bu zalım mərəzi oğlum tanıtdı", - deyə Samirə adlı valideynin çarəsiz hönkürtüsü sözlərini yarımçıq kəsir...

Talassemiya Mərkəzinin transfuziya otağındayıq...

Bu ürəyi qəmli, kədərli valideynlərlə həmsöhbət olmaq, çarəsizliklərini bölüşmək o qədər çətindir ki...

### "Ən çox uşaqlar əzab çəkir..."

"Talassemiyadan ən çox uşaqlar əzab çəkir. Xəstəlik böyük-kiçik tanımasa da, uşaqların əzabı daha ağrıdıcıdır. Amma dünyada bu xəstəlikdən tamamilə sağalan insanlar var. Ona görə çox böyük iş görmək lazımdır və bunun öhdəsindən yalnız birlikdə gəlmək olar. Həm dövlət, həm də ictimaiyyət, fondlar, imkanlı insanlar birlikdə bu bəlanın qarşısını ala bilərlər. Heydər Əliyev Fondu üçün isə əsas məsələ ixtisaslaşdırılmış mərkəzin və qan bankının yaradılmasıdır.

Ardı 4-cü səh.

# Azərbaycan Prezidentinin islahatçı lider olduğunu dünya da təsdiqləyir

İlham Əliyevin sonuncu prezident seçkilərindən sonrakı andiçmə mərasimindən bir il ötür. Prezident İlham Əliyev andiçmə mərasimində bu yüksək etimada görə dərin təşəkkürünü bildirmiş, xalqın dəstəyindən qurur duyduğunu və güc aldığını dilə gətirmişdir. Bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyinə and içən dövlət başçısı öz vədinə əvvəlki illərdə olduğu kimi, yenə də sadiq qalacağını bildirmişdir.

Artıq 16 ildir ki, Azərbaycan xalqı dövlət başçısı İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində böyük uğurlara imza atır, təhlükəsizlik, sabitlik şəraitində yaşayır. Dünyanın əksər bölgələrində baş verən ağır proseslər, qanlı toqquşmalar, vətəndaş müharibələri, dövlət çevrilişləri qlobal təhlükənin yaxınlaşmasından xəbər versə də, Azərbaycanda həmin risklərin hamısı neytrallaşdırılmışdır. Prezidentin təbiri ilə desək, "Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir".

Ötən bir il ərzində də ölkəmizdə bütün sahələrdə dərin islahatlar aparılmış, iqtisadi inkişaf davam etmiş, əhalinin sosial müdafiəsi gücləndirilmişdir. Antimilli qruplaşmalar isə Azərbaycanın siyasi səhnəsindən birdəfəlik silinmiş, xalq öz dövləti ətrafında birlik, həmrəylik nümayiş etdirmişdir. Azərbaycan, həmçinin ölkə daxilində dinlərarası, millətlərarası münasibətlərin inkişafında əksər dövlətlərdən daha tolerant olduğunu ortaya qoymuşdur. Bu gün biz dünyanın istənilən ölkəsində öz milli-mənəvi dəyərlərinə sadiq və bağlı xalq kimi tanınırıq.

Ötən bir ildə həm də Ermənistanın işğalçı siyasəti tam ifşa olunmuş, bütün regional layihələrdən təcrid olunması davam etmişdir. Dövlət başçısı bu istiqamətdə görülən işlərə belə münasibət bildirmişdir: "Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Hüquqi baza var. Biz 15 il ərzində bu bazanı möhkəmləndirdik. Biz son 15 il ərzində münaqişə ilə bağlı həqiqətləri dünya birliyinə çatdıra bilmişik, kitablar yazıldı, xəritələr, qədim xəritələr ortaya qoyuldu, təqdimatlar, sərgilər keçirildi. Ondan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıdı. Bizim diplomatik və siyasi uğurlarımız öz nəticəsini verməkdədir".

Dövlət baçısının gördüyü işlərə ABŞ-ın "İrs" Fondu da yüksək qiymət vermişdir. Vaşinqtonda fəaliyyət göstərən bu nüfuzlu təşkilat (Heritage Foundation) cari ildə yayımladığı illik Dünya İqtisadi Azadlıq İndeksi hesabatında Azərbaycanın yaxşı göstəriciyə malik olduğunu bildirmişdir.

Ümumiyyətlə, biz artıq dünyanın nüfuzlu reytinq agentliklərinin ölkəmizin müxtəlif sahələrdə apardığı islahatlara yüksək dəyər vermələrinə alışmışıq. Bu barədə il boyu dünyanın sorğu agentlikləri müxtəlif məruzə və hesabatlarında geniş məlumatlar yayırlar. Bu baxımdan adıçəkilən "İrs" Fondunun hesabatı da xüsusi əhəmiyyət kəsb edir. Məlumat üçün bildirək ki, The Heritage Foundation Birləşmiş Ştatlarda 1973-cü ildə təsis edilən Strateji Araşdırmalar İnstitutudur, ABŞ-da ciddi nüfuza malikdir və ona fəaliyyətinə 100 minlərlə fiziki şəxs, həmçinin müxtəlif fond və korporasiyalar dəstək verir. Məhz belə nüfuzlu təşkilatın ölkəmizdə 2018-ci ildə aparılan islahatlara yüksək qiymət verməsi həm də Azərbaycan Prezidentinin islahatlarının təqdir olunmasını təsdiqləyir.

Builki təqdimat mərasimində çıxış edən fondun rəhbərliyi Azərbaycanın xüsusən mülkiyyət hüquqları, idarəetmənin şəffaflığı və ədliyyə sisteminin inkişafı sahələrində böyük irəliləyişlərə nail olduğunu məxsusi vurğulamış, Azərbaycanın 2018-ci ildə iqtisadi azadlıq və islahatlar sahəsində ən çox irəliləyən ölkə olduğunu təsdiq etmişdir. Bu, əslində "İrs" Fondunun Azərbaycan Prezidentinin birillik fəaliyyətinə verilən beynəlxalq dəyərdir. Fond ölkəmizin sürətlə iqtisadi islahatlara getdiyini qeyd etmiş, indeksdə Azərbaycanın iqtisadi azadlıqlar sahəsində İtaliya və Fransa kimi Avropa ölkələrini geridə qoyduğu bildirilmişdir. Müharibə şəraitində yaşayan ölkənin bu cür yüksək iqtisadi islahatları həyata keçirməsi, sözün əsl mənasında, bütün dünya iqtisadiyyatı üçün maraqlı və unikal hadisədir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Qusar rayonunun Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səkkiz min nəfər əhalinin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2019-cu il*

# "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 685; 2006, № 11, maddə 932; 2007, № 5, maddə 442, № 11, maddə 1053; 2016, № 6, maddə 969, № 12, maddə 1989; 2017, № 3, maddə 346; № 6, maddələr 1024, 1046, № 7, maddə 1266, № 12, I kitab, maddə 2255; 2018, № 6, maddə 1161) aşağıdakı məzmunda 33.1.9-3-cü maddə əlavə edilsin:

"33.1.9-3. operator və ya provayderin telekommunikasiya şəbəkəsinə qoşulmaqla təşkil edilən qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin qarşısının alınması üçün texniki vasitələrdən, avadanlıqlardan və ya proqram təminatından istifadə etməklə tədbirlər görmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

# "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1539-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1539-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası ərazisində efir məkanının təhlükəsizliyi və kənar yayımlara qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər planının layihəsini beş ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2019-cu il*

# "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Dövlət satınalmalarının vahid internet portalının (bundan sonra - portal) operatoru Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə:

4.1. portalın fəaliyyətinin təşkili, saxlanması və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

4.2. portalın saxlanması xərclərinin dövlət büdcəsinin vəsaiti hesabına və dövlət-özəl tərəfdaşlığı prinsipinə uyğun olaraq maliyyələşdirilməsi barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.3. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə birlikdə portalın təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi portalın "Elektron Hökumət" İnformasiya Sisteminə inteqrasiyası ilə bağlı zəruri tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 aprel 2019-cu il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# V.İ.İsayevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Vidadi İsa oğlu İsayev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2019-cu il*

# Sumqayıt Şəhər Məhkəməsinin hakimi İ.M.Mahmudovun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini, habelə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 113-cü və 114-cü maddələrini rəhbər tutaraq **qərara alıram:**

Qanunvericiliyin tələblərini dəfələrlə kobudcasına pozduğuna görə Sumqayıt Şəhər Məhkəməsinin hakimi İlyas Musa oğlu Mahmudovun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2019-cu il*

# *Türkiyə KİV-i:* "Ermənistan işğal altındakı torpaqlardan narkotik üçün istifadə edir"










Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) Türkiyə KİV-i tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Türkiyə KİV-i konfrans haqqında ətraflı məlumat verib, Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun tədbirin açılışındakı çıxışından fikirləri diqqətə çatdırıb.

Məlumatlar "Azərbaycanın Baş naziri Novruz Məmmədov: Ermənistan işğal altındakı torpaqlardan narkotik üçün istifadə edir", "Azərbaycan Ermənistanın kirli üzünü ortaya çıxardı" və s. sərlövhələrlə təqdim olunub.

Ölkənin aparıcı televiziya kanalları və qəzetlərinin internet saytlarında (www.cnnturk.com, www.ntv.com.tr, www.star.com.tr, www.aksam.com.tr, www.yeniakit.com.tr və s.) yer alan məlumatlarda türkdilli oxucuların diqqətinə çatdırılır ki, Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və ətraf 7 rayon artıq 25 ildən çoxdur Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılır. İşğal altındakı həmin ərazilərdən narkotik vasitələrin istehsalı və tranziti üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə münbit şərait yaradır.

# Azərbaycan ilə Çin arasında texniki yardım sahəsində əməkdaşlığa dair saziş imzalanıb

Aprelin 17-də Nazirlər Kabinetində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında texniki yardım (qrant) sahəsində əməkdaşlığa dair saziş imzalanıb.



AZƏRTAC xəbər verir ki, sazişi Azərbaycanın Baş nazirinin müavini Əli Əhmədov və Çinin ölkəmizdəki səfiri Vey Cinhua imzalayıblar.

Baş nazirin müavini Əli Əhmədov Azərbaycan ilə Çin arasında əməkdaşlığın inkişafından danışıb. O deyib ki, yüksəksəviyyəli qarşılıqlı səfərlər zamanı bu əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı ətraflı müzakirələr aparılır. Çin Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycan da "Vahid Çin" siyasətini birmənalı şəkildə dəstəkləyir. Azərbaycan Çin Xalq Respublikasının Sədri Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir və bu layihənin həyata keçirilməsində yaxından iştirak edir.

Səfir Vey Cinhua deyib ki, Çin ilə Azərbaycan yaxşı dost və yaxın tərəfdaşdır. Diplomat 2015-ci ildə Prezident İlham Əliyevin Çinə dövlət səfərini xatırladıb, bu səfər çərçivəsində hər iki ölkənin liderləri tərəfindən əməkdaşlıqla bağlı imzalanmış sənədlərin əhəmiyyətini qeyd edib. Səfir vurğulayıb ki, Azərbaycan və Çin rəhbərlərinin dəstəyi ilə ölkələrimiz arasındakı siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlıq inkişaf edir.

# Azərbaycan-NATO əməkdaşlığının inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb



Aprelin 17-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO-nun Beynəlxalq Hərbi Qərargahının baş direktoru general-leytenant Yan Broeksin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfərin NATO-nun yaranmasının 70 illiyi və Azərbaycan-NATO əməkdaşlığının 25-ci ildönümünə təsadüf etdiyini vurğulayan nazir Alyansla əlaqələrin çoxşaxəli olduğunu və bu tərəfdaşlığın yubileyinin qeyd olunmasına dövlət səviyyəsində xüsusi diqqətin ayrıldığını bildirib.

Müdafiə naziri NATO-nun ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi siyasi dəstəyi xatırladaraq bunun, ümumilikdə Avratlantik məkanda təhlükəsizliyin möhkəmlənməsinə, eləcə də regional sülhə və sabitliyə xidmət etdiyini nəzərə çatdırıb.

Y.Broeks, öz növbəsində, Azərbaycan-NATO əlaqələrini yüksək qiymətləndirərək sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəni, Alyansın bir çox proqramlarında Azərbaycan hərbçilərinin fəal iştirakını, habelə NATO-nun müxtəlif qərargahlarında xidmət edən zabitlərimizin hazırlığını xüsusi vurğulayıb.

Görüşdə Azərbaycan ilə NATO arasında həyata keçirilən əməkdaşlıq proqramları və layihələri çərçivəsində əməliyyat hazırlığı, təlimlərin keçirilməsi, hərbi təhsilin inkişafı, qüvvələr arasında qarşılıqlı uzlaşmanın əldə olunması məsələləri müzakirə edilib və əməkdaşlığın inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Daxili İşlər Nazirliyində geniş kollegiya iclası keçirilib





Aprelin 17-də Daxili İşlər Nazirliyində "Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı", "İctimai yerlərdə baş verən cinayətlərin profilaktikası" və "Şəxsi heyətin peşə hazırlığının təşkili" sahələrində görülən işlərin vəziyyətinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxili işlər naziri, general-polkovnik Ramil Usubov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, habelə insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunması baxımından böyük əhəmiyyətə malik olduğunu vurğulayıb. Son illər ölkədə uğurla həyata keçirilən islahatlar, quruculuq işləri və hüquq mühafizə siyasəti çərçivəsində daxili işlər orqanlarında da fəaliyyətin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi üzrə əhəmiyyətli işlər görüldüyünü, qarşıda duran vəzifələri yerinə yetirməyə qadir olan peşəkar kadr özəyinin formalaşdırıldığını diqqətə çatdırıb.

Sonra gündəlikdəki məsələlər barədə məruzə ilə çıxış edən Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov və Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov müzakirə olunan məsələlərlə bağlı respublikanın daxili işlər orqanları tərəfindən görülən işləri, xidməti fəaliyyətdə əldə olunmuş nəticələri, mövcud olmuş nöqsan və çatışmazlıqları diqqətə çatdıraraq onların aradan qaldırılması yollarından və qarşıda duran vəzifələrdən danışıblar.

Məruzələr ətrafında çıxış edən bir sıra şəhər, rayon polis orqanlarının rəisləri gündəlikdəki məsələlər üzrə, həmçinin cinayətkarlıqla mübarizə və ictimai asayişin təmini sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verərək iclasda səsləndirilən iradların tezliklə aradan qaldırılacağına söz veriblər.

İclasa yekun vuran daxili işlər naziri Ramil Usubov əvvəlki dövrlərdə olduğu kimi, cari ilin birinci rübündə də respublikada cinayətkarlıqla mübarizədə, daxili təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunması sahəsində əldə olunmuş müsbət nəticələrin inkişaf etdirildiyini, bu işdə prokurorluq, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə birgə səmərəli fəaliyyətin mühüm rol oynadığını vurğulayıb. O, gündəlikdəki məsələlər üzrə görülən işlərin bütövlükdə qənaətbəxş olduğunu, eyni zamanda, bəzi ərazi orqanlarının işində müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu qeyd edərək onların aradan qaldırılması üçün adekvat tədbirlərin görülməsini tələb edib, həmçinin əməliyyat-xidməti fəaliyyətin bir sıra vacib istiqamətləri üzrə və aktual məsələlərə dair konkret tapşırıq və tövsiyələrini verib.

Vurğulanıb ki, təqsirləndirilən və itkin düşmüş şəxslərin axtarışı üzrə tədbirlər, ictimai yerlərdə baş verən cinayətlərin profilaktikası, şəxsi heyətin peşə hazırlığı sahələrində fəaliyyət gücləndirilməli, hər bir orqan və hissədə qanunçuluq, nizam-intizam möhkəmləndirilməli, vətəndaşların qəbuluna, onların müraciətlərinə daha həssas münasibət göstərilməli, hər bir ərizə və şikayətə vaxtında və operativ baxılmalı, ümumən şəxsi heyətin tapşırılmış sahəyə məsuliyyətinin yüksəldilməsi istiqamətində işlər böyük əzmlə davam etdirilməlidir.

Nazir Ramil Usubov Azərbaycan Prezidenti İlham Əliyevi əmin edib ki, daxili işlər orqanlarının şəxsi heyəti qanunvericilikdə müəyyən edilmiş vəzifələrin, qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, ölkədə sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək.

# Güclü dövlətçiliyin və inkişafın təminatçısı

2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində xalqın yüksək etimadını qazanan İlham Əliyev Prezident seçildi. Bu gün isə İlham Əliyevin vətənə, dövlətə və xalqa sədaqət andı içərək yeni müddətə prezidentlik səlahiyyətlərinin icrasına başlamasından bir il keçir. Ötən ilin reallıqları kifayət qədər qürurvericidir.
Milli Məclisin deputatları bu barədə fikirlərini qəzetimizlə bölüşdülər.









## Lider qətiyyəti ilə dövlətə və xalqa xidmət nümunəsi

**İqbal MƏMMƏDOV,**
*Milli Məclisin deputatı:*

- 2018-ci ilin aprelində keçirilən prezident seçkiləri xalqımızın müdrik qərarının bir daha təsdiqi ilə başa çatdı. Vətəndaşlarımız növbəti dəfə Heydər Əliyev ideyalarının və bu ideyaların ən layiqli davamçısı olan İlham Əliyevin ətrafında sıx səfərbər olaraq inkişafa və sabitliyə səs verdilər. Səsvermənin nəticələri göstərdi ki, Azərbaycan xalqı mövcud siyasi kursu tərəqqinin və işıqlı gələcəyinin ən etibarlı təminatı kimi görür.

Bu gün cənab İlham Əliyevin Milli Məclisdəki andiçməsindən bir il ötür. Həmin tarixi hadisənin iştirakçısı olaraq Prezidentimizlə fəxr etdim, qürur duydum. Çünki İlham Əliyev əsl lider kimi öz səlahiyyətlərini buna qədər layiqincə yerinə yetirmiş, ötən 15 il ərzində verdiyi hər bir vədi gerçəkləşdirmiş, ən əsası, Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə çevirmişdir. İlham Əliyevin müdrik siyasəti nəticəsində bu illərdə iqtisadiyyatımızın 3 dəfədən çox artması, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, "Cənub qaz dəhlizi" kimi qlobal layihələrin həyata keçirilməsi, Azərbaycanın kosmik klubun üzvü olması, BMT Təhlükəsizlik Şurasına sədrlik etməsi, Silahlı Qüvvələrimizin döyüş imkanlarını artıraraq dünyanın 50 ən güclü ordu sırasında yer alması və digər bu kimi saymaqla bitməyəcək uğurların hər biri dövlətçilik tariximizin şərəfli səhifələrini təşkil edən tarixi hadisələrdir.

İlham Əliyev andiçmə mərasimində ölkənin gələcək inkişaf prioritetlərini diqqətə çatdıraraq, islahatların davam etdiriləcəyini bildirdi: *"Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var"*.

Budur, Prezident İlham Əliyevin yeni müddət üçün səlahiyyət dövrünün birinci ili son illərdə qazanılmış nailiyyətlərin miqyasının daha da genişlənməsi ilə əlamətdardır. 2018-ci ilin aprelindən sonra mühüm layihələrin başa çatdırılması, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin, Türkiyədə SOCAR-ın sərmayəsi ilə inşa olunan "Star" neft emalı zavodunun istifadəyə verilməsi, növbəti peykimizin orbitə buraxılması, "Cənub qaz dəhlizi"nin açılışı ilə Azərbaycanın qaz ixracında yeni mərhələnin başlanması, Naxçıvandakı Günnüt əməliyyatı ötən bir ilin böyük uğurlarıdır.

Bu dövrün digər mühüm göstəricisi yeni keyfiyyət mərhələsinə qədəm qoyan islahatlardır. Möhtərəm İlham Əliyevin sərəncamları ilə dövlət orqanlarında keçirilən struktur islahatları idarəetmədə çevikliyi və səmərəliliyi artırmağa xidmət edir. Yanvar ayından etibarən bəzi qurumlar ləğv edildi, bəziləri birləşdirildi və ya yenidən formalaşdırıldı. Struktur islahatları dövlət orqanlarının ayrı-ayrı sahələrində idarəçiliyi iqtisadi inkişafın yeni mərhələsinə uyğunlaşdıracaq.

Ən mühüm islahatlar sırasında sosial sferada qəbul edilən qərarları xüsusilə qeyd etməliyik. Çünki Prezident İlham Əliyevin fərman və sərəncamlarının 3 milyon vətəndaşı əhatə etməsi göstərdi ki, ölkədə həyata keçirilən siyasət məhz insan amilinə xidmət edir. Beləliklə, minimum əməkhaqqının, əmək pensiyalarının minimum məbləğinin, tələbə, magistr və doktorantlara verilən təqaüdlərin, sosial müavinətlərin artırılması həm vətəndaş məmnunluğuna, həm də sosial rifahın yüksəldilməsinə xidmət edən addımlar kimi ictimaiyyətin dərin rəğbətinə səbəb oldu. Fərman və sərəncamlarda cəmiyyətin, demək olar ki, bütün təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı məsələlərin yer alması bir daha təsdiq etdi ki, cənab Prezident hər bir vətəndaşın rifahının daha da yüksəldilməsini diqqət mərkəzində saxlayır.

Məlum olduğu kimi, son illərdə bir sıra çoxmənzilli yaşayış binalarında tikinti işləri aparılarkən şəhərsalma qanunvericiliyinin tələblərinə riayət olunmayıb və ya sənədləşmədə qüsurlar buraxılıb. Bu da nəticədə həmin binalardakı mənzillərdə mülkiyyət hüquqlarının rəsmiləşdirilməsində ciddi problemlər yaradırdı. Dövlət başçısının fevralın 19-da imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərman bu sahədə inqilabi yenilik oldu və dövlət vətəndaşların mülkiyyət hüquqlarını təmin etdi.

Prezident İlham Əliyevin başqa bir inqilabi qərarı fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı imzaladığı fərman oldu. Fərmana əsasən, fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı artmış hissəsi qiymətləndirilərək Mərkəzi Bankın elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin hesabına ödəniləcək. Prezidentin bu fərmanı ilə 800 min nəfərin kredit problemi həll edildi, məhkəmə çəkişmələri vətəndaşın xeyrinə həll olundu.

Məhkəmə-hüquq sistemində də islahatlar dərinləşəcək. Bununla bağlı cənab Prezidentin aprelin 3-də imzaladığı fərmanda qeyd edildiyi kimi, ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir.

Göründüyü kimi, İlham Əliyevin yeni səlahiyyət müddətinin birinci ili böyük uğurlarla yadda qaldı. Qazanılan nailiyyətlər bir daha təsdiq edir ki, cənab Prezident əsl lider əzmi ilə Azərbaycanın inkişafını, yüksəlişini, qüdrətlənməsini və xalqımızın daha firavan sosial rifahını təmin edir.

## Azərbaycan yeni dövrə qədəm qoyub

**İlham MƏMMƏDOV,**
*Milli Məclisin deputatı:*

- Ötən il prezident seçkiləri kampaniyasının nəticələri göstərdi ki, cənab İlham Əliyev öz xalqının yüksək etimadına malikdir. Seçkidə iştirak edənlərin 86,02 faizinin öz səsini məhz İlham Əliyevə verməsi həm də onu təsdiq etdi ki, ölkə vətəndaşları Azərbaycanın yüksəlişinə və qüdrətlənməsinə aparan siyasi xətti birmənalı dəstəkləyirlər.

Prezident seçkiləri kampaniyasının gedişatı, müxtəlif rəy sorğularının nəticələri göstərdi ki, seçicilərin mütləq əksəriyyətinin seçimi İlham Əliyevin namizədliyinin dəstəklənməsi üzərində köklənib. Bu seçimin səbəbləri isə ötən dövrün inkişaf yoluna istinad edirdi. Ötən 15 ilin statistikasına nəzər salsaq, qürur doğuran nailiyyətlərin qazanıldığını görərik. Ən mühüm uğurlarımızın sırasında Azərbaycanda ümumi daxili məhsul istehsalının 3,3 dəfə artmasını xüsusi qeyd etməliyik. Və elə ÜDM-in tərkib hissəsi olaraq Azərbaycanın sənaye potensialı 2,6 dəfə çoxaldı ki, bu da ölkənin keçdiyi nümunəvi inkişaf yolunun mühüm göstəricisidir. Valyuta ehtiyatlarımızın bu dövrdə 24 dəfə artaraq 45 milyard dollara çatması, iqtisadiyyata 250 milyard dollar sərmayənin yatırılması, 100 mindən çox müəssisənin yaradılması, 15 min kilometrdən sox avtomobil yolunun çəkilməsi və ya yenidən qurulması kimi diqqətəlayiq göstəricilərin hər biri keçdiyimiz şərəfli inkişaf yolunun ayrı-ayrı səhifələridir. Bu, ümumiyyətlə, analoqu olmayan yüksəliş nümunəsidir.

Azərbaycanın iqtisadi uğurları sosial sferanı əhatə edən sahələrin də yüksəlişinə yol açıb. 1,5 milyonu daimi olan 2 milyondan çox yeni iş yerinin açılması, işsizlik və yoxsulluğun 5 faiz həddinə enməsi, 3 min 200-dən çox məktəb binasının, 650-yə yaxın səhiyyə ocağının əsaslı təmiri və ya yenidən qurulması, 44 olimpiya mərkəzinin, yüzlərlə idman qurğularının inşası əslində onu göstərir ki, bu qısa dövrdə Azərbaycan bir neçə onilliyə bərabər inkişaf yolu keçib.

Ümumiyyətlə, ölkəmizin inkişaf yolundan danışmaq həm çətindir, həm asan. Çətindir ona görə ki, ötən 15 ildə ölkəmizdə qazanılan uğurların sayı həddən artıq çoxdur. Bütün bu uğurları sadalamaq üçün bizə nəinki saatlar, günlər bəs etməz. Asandır ona görə ki, hara baxsan, hara getsən, hər yerdə inkişaf və yüksəliş nümunələrini görmək mümkündür. Və bütün bu uğurlar hər bir seçkidə olduğu kimi, 2018-ci ilin seçkilərində də cənab İlham Əliyevin qələbəsini təmin etdi. Yenidən xalqın etimadına layiq görülən cənab İlham Əliyevin bir il əvvəl, aprel ayının 18-də Milli Məclisdə andiçməsi ilə seçki kampaniyası rəsmən başa çatdı. Andiçmə mərasimində Prezident İlham Əliyev bundan sonra da xalqa və vətənə ləyaqətlə xidmət edəcəyini bəyan etdi: "İlk növbədə bir daha mənə bu seçkilərdə göstərilən yüksək etimada görə doğma Azərbaycan xalqına dərin təşəkkürümü bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və vətənə ləyaqətlə xidmət edəcəyəm".

Ötən bir ilin yekunları göstərir ki, İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Müxtəlif sahələrdə başladılan yeni islahatlar son nəticədə dövlətimizin inkişafına, sosial rifahın yüksəlməsinə xidmət edir. Bu bir ildə iqtisadi inkişafla bağlı göstəricilər əhəmiyyətli dərəcədə yüksəlib, qeyri-neft sektorunda istehsal artıb. Ən mühüm nailiyyətlərimiz sırasında qlobal layihələrin işə salınması, üçüncü peykimizin kosmosa göndərilməsi xüsusi yer tutur.

Geridə qoyduğumuz bir ilin hər bir sahə üzrə nəticəsi təsdiq edir ki, Azərbaycan vətəndaşları İlham Əliyevin rəhbərliyi ilə yüksəliş, sabitlik və əmin-amanlıq yolunu seçiblər. Bu seçim həm də belə bir həqiqəti ortaya qoyur ki, ölkəmizin daha xoşbəxt gələcəyi mövcud siyasi kursun davamından keçir.

## Möhtəşəm uğurlarla zəngin il

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı, YAP Ağdaş rayon təşkilatının sədri:*

- Ölkəmizin siyasi həyatında böyük əhəmiyyətli rol oynayan 2018-ci ilin prezident seçkilərindən bir il ötdü. Bu seçki "Güclü dövlət, yüksək rifah" tezisini fəaliyyətinin əsas prinsipi kimi qəbul edən cənab İlham Əliyevə milyonların sevgisinin, dəstəyinin növbəti təzahürü oldu. Bu gün isə Prezident İlham Əliyevin andiçməsindən bir il ötür.

Son bir ilə nəzər salsaq görərik ki, bu dövrün hər ayı, hər günü mühüm hadisə ilə tarixə yazılıb. Belə ki, 11 aprel prezident seçkilərindən sonrakı növbəti ayda Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasiminin keçirilməsi Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında artan rolundan xəbər verir. Həmçinin bu dəhliz ölkəmizə əlavə siyasi, iqtisadi, maliyyə imkanları yaradacaq, eləcə də zəngin təbii qaz resurslarımızın dünya bazarlarına bundan sonra onilliklər ərzində ixracını təmin edəcək, valyuta axını artacaq, dayanıqlı inkişafımız daha da möhkəmlənəcəkdir. Bu mühüm hadisənin ardınca iyun ayında "Cənub qaz dəhlizi"nin əsas seqmentlərindən olan TANAP-ın Türkiyənin Əskişəhər şəhərində açılış mərasimi keçirildi. TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürü oldu. Bu uğurların davamı olaraq ötən ilin oktyabrında SOCAR-ın həyata keçirdiyi investisiya layihələrindən olan "Star" neft emalı zavodu istifadəyə verildi. Son 30 ildə həyata keçirilən ən böyük real sektor sərmayəsi olan "Star" neft emalı zavodu Avropa, Yaxın Şərq və Şimali Afrika bölgələrində ən böyük neft müəssisələrindən biri olaraq uğurla fəaliyyət göstərir. Enerji sektorunda uğurlarımız davamlıdır və davam edəcəkdir.

Neft siyasətinin uğurlu nəticəsidir ki, bu gün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində ölkəmizdə davamlı addımlar atılır. Bu mənada son bir ilin digər mühüm addımlarından biri kimi Prezident İlham Əliyevin fərmanı ilə təsdiqlənmiş sayca dördüncü "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın qəbulunu qeyd etməliyik. 2018-ci ilin seçkilərindən bəri bölgələrə 28 səfər edən Prezident İlham Əliyev həm görülən işlərə nəzarət edir, həm də yerlərdə vətəndaşlarla görüşür, onları narahat edən problemlərin həlli istiqamətində göstərişlər verir. Bu dövrdə rayonların sosial-iqtisadi durumunun yaxşılaşdırılması, həmçinin infrastruktur layihələri ilə əlaqədar bir-birindən önəmli sərəncamlar imzalanıb. Hər bir rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün əlavə tədbirlər planının təsdiqlənməsi və Prezidentin Ehtiyat Fondundan vəsaitlərin ayrılması da bölgələrin inkişafının prioritet olmasından xəbər verir.

Cənab Prezidentin ötən bir ildəki fəaliyyətinin ən mühüm məqamlarından biri əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən fərman və sərəncamların imzalanmasıdır. Məlum olduğu kimi, iqtisadi göstəricilərin yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmasının vacibliyini bildirən Prezident İlham Əliyev həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını dəfələrlə bəyan edib. Bu ilin əvvəlindən əməkhaqqı və pensiyaların, təqaüdlərin, qaçqın və məcburi köçkünlər, aztəminatlı ailələr üçün nəzərdə tutulan güzəşt və müavinətlərin artırılması, problemli kreditlərlə, çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı sərəncamların imzalanması ölkə vətəndaşlarının sosial müdafiəsinin təminatı istiqamətində aparılan siyasətin ən bariz nümunələridir.

Prezident İlham Əliyevin bu il Şamaxı, Ağsu və İsmayıllıda baş verən zəlzələnin fəsadları ilə şəxsən tanış olması, əhaliyə lazımi kömək göstərilməsi üçün aidiyyəti qurumlara tapşırıqlarını verməsi, vurulan ziyanın dövlət tərəfindən ödənilməsi ilə bağlı imzaladığı sərəncamlar da göstərdi ki, dövlət başçısı öz vətəndaşının yanındadır. Bu həm də ölkə rəhbərinin hər bir Azərbaycan vətəndaşının Prezidenti olmasına bariz nümunədir. Prezidentin zəlzələ bölgəsində aparılan işlərin gedişi ilə dəfələrlə maraqlanması yerli sakinlər, eləcə də ölkə ictimaiyyəti tərəfindən böyük rəğbət hissi ilə qarşılandı. Eyni addımlar Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğın zamanı da diqqəti çəkdi. Hər zaman ölkə vətəndaşının yanında olan İlham Əliyev yanğından dərhal sonra müşavirə keçirərək aidiyyəti qurumlara müvafiq tapşırıqlar verdi, imzaladığı sərəncamla zərərçəkmiş sahibkarlara maddi yardım göstərilməsi məqsədilə 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 3 milyon manat vəsait ayrıldı.

Fransanın "Opinion Way" şirkətinin Azərbaycan Prezidenti İlham Əliyevin son bir ildəki fəaliyyəti ilə bağlı açıqladığı geniş rəy sorğusunun nəticələri göstərdi ki, xalqımız Prezident İlham Əliyevin son bir ildəki fəaliyyətini, həyata keçirdiyi islahat kursunu, ölkəmizdəki mövcud ictimai-siyasi vəziyyəti, hökumətin daxili və xarici siyasətini yüksək qiymətləndirir. Rəyi soruşulanların 80 faizdən çoxunun Azərbaycandakı möhkəm və davamlı sabitliyi Prezidentin fəaliyyətinin birbaşa nəticəsi hesab etməsi həm də sübut edir ki, ölkəmizdəki sabitliyin dayağı xalq-iqtidar birliyidir.

İqtisadi uğurları artan, maliyyə imkanları möhkəmlənən ölkəmizdə qarşıdakı dövrdə yeni islahatlar nəzərdə tutulur. Prezidentin ötən il andiçmə mərasimində qeyd etdiyi kimi, növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Bunun nəticəsidir ki, artıq ölkəmizdə hər bir sahədə yeni inkişaf mərhələsi başlayır. Bu baxımdan qarşıdakı illər də mühüm nailiyyətlərlə əlamətdar olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Doğrulan vədlər

## İlham Əliyev xalqa və dövlətə sədaqət andına sadiq qalaraq ləyaqətli xidmət missiyasını uğurla davam etdirir

*Əvvəli 1-ci səh.*

Aprelin 1-dən etibarən isə dövlət başçısının "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamı qüvvəyə mindi və 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artırıldı.

Böyük sosial islahatlar paketi çərçivəsində imzalanan bu sənədlər 3 milyona yaxın insana sevinc payı bəxş etdi.

### Problemli mənzillərin, kreditlərin həlli yolları tapıldı

Dövlət başçısının böyük sosial islahatlar paketi çərçivəsində reallaşan mühüm addımlardan biri də uzun müddətdir ölkə əhalisini narahat edən problemli kreditlərin həlli məsələsi oldu. Həqiqətən də xalq bu qərarı çox yüksək dəyərləndirdi.

Bu qərar bir milyona yaxın insanın problemini həll etmiş oldu, məhkəmə çəkişmələrinə son qoyuldu. Prezident devalvasiyadan əziyyət çəkən insanlara misilsiz dəstək verdi və bununla da dövlət növbəti dəfə vətəndaşın yanında olduğunu sübut etdi.

Həmçinin Prezidentin bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı fərman da təsdiq etdi ki, əhalini narahat edən bütün məsələlər onun diqqət mərkəzindədir. Bu fərmanlar sosialyönümlülük və humanizm prinsiplərinin əsas götürülərək, əhalinin sosial maraqlarının müdafiəsinə və rifah halının yaxşılaşmasına yüksək diqqət yetirildiyini bir daha göstərdi.

Birmənalı demək olar ki, ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, o cümlədən də problemli kreditlərin həlli öz miqyasına, əhatə dairəsinə görə sözün əsl mənasında inqilabi qərarlardır.

### Müstəqillik dövrünün ən böyük əfv sərəncamı

Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu humanizm ənənələrini davam etdirən Prezident İlham Əliyev hər zaman mərhəmət və insanpərvərlik kimi ən ali keyfiyyətləri əldə rəhbər tutaraq bayram günlərində, əlamətdar tarixi günlərdə əfv sərəncamları imzalayır. Dövlət başçısı bu addımları ilə törətdiyi əməldən səmimi peşmançılıq hissi keçirən günahkar şəxslərin islah olunaraq düz yola qayıtması, onların cəzaçəkmə müəssisəsindən çıxdıqdan sonra layiqli vətəndaş kimi azad cəmiyyətə qovuşması, bir daha cinayət əməli törətməməsi üçün lazımi tədbirlər görür, minlərlə məhkuma yenidən azadlıq bəxş edir.

Cənab İlham Əliyevin mayın 24-də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə imzaladığı əfv sərəncamı isə digərlərindən fərqləndi. Çünki müstəqillik dövrünün ən böyük əfv sərəncamı ilə 634 nəfər azadlığa qovuşdu.

Prezidentin martın 16-da Novruz bayramı münasibətilə imzaladığı sərəncam isə 431 nəfərə şamil edildi. İmzalanan əfv sərəncamları demokratiyanın inkişafına xidmət edən mühüm addım hesab edilir və ümumilikdə atılan hər bir addım insan amilinə verilən dəyərin aydın ifadəsidir.

### Regional inkişafın yeni mərhələsi

Hər zaman regionların sosial-iqtisadi inkişafına diqqət edən Prezidentin seçkilərdən sonrakı müddət ərzində bölgələrə səfərləri, xalqla səmimi, protokoldan kənar görüşləri, hər kəsi səbirlə dinləməsi, əhalinin problemləri ilə maraqlanması xalqın liderinə sevgisini daha da artırdı.

Seçkilərdən sonra Prezident bütün səfərlərində vətəndaşlarla görüşüb məktublar da qəbul edirdi və götürülən məktubların hər birinə baxılacağını diqqətə çatdırırdı. Beyləqan rayonuna səfəri zamanı isə Prezidentin yerli müğənninin ifa etdiyi "Azərbaycan" mahnısını vətəndaşlarla birgə ifa etməsi ən xoş anlar kimi yaddaşlara yazıldı.

Ümumiyyətlə, prezident seçkilərindən sonra İlham Əliyev 22 şəhər və rayona 27 dəfə səfər edib, 100-ə yaxın yeni obyektin açılış mərasimində xeyir-duasını verib. Bu obyektlər isə yeni-yeni iş yerlərinin açılmasını şərtləndirib.

Bu il Prezidentin fərmanı ilə regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafına dair yeni dövlət proqramı təsdiq edilib. İlkin hesablamalara görə, IV Dövlət Proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Bunun 4,6 milyard manatı özəl sektor tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir.

### Çətin durumda olan vətəndaşa arxa-dayaq Prezident

Fevralın 5-6-da şimal bölgəsində baş verən zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində Prezidentin atdığı addımlar bir daha təsdiq etdi ki, İlham Əliyev hər zaman çətin vəziyyətə düşən vətəndaşa arxa durur, ona dəstək verib dövlətin hər zaman onun yanında olduğunu söyləyir. Zəlzələdən dərhal sonra Prezidentin Şamaxıya, Ağsuya səfərləri, insanlara təskinlik verməsi və qəzalı duruma düşən bütün mənzillərin sökülərək yeni mənzillərin tikilməsi ilə bağlı tapşırıq verməsi əsl liderlik örnəyi idi.

Şamaxıda evi dağılmış 92 yaşlı Saray nənəyə baş çəkib ona təskinlik verən, evinin tamamən söküb yenidən tikilməsini tapşıran Prezident cəmi 1 aydan sonra ağbirçək ana ilə yeni mənzilində görüşdü. Yəni dövlət başçısı verdiyi vədə bir daha sadiq qalaraq 1 ay müddətində Saray nənəyə əvvəlkindən daha möhtəşəm ev tikdirdi. Onu da əlavə edək ki, yeni mənzil yaşamaq üçün bütün avadanlıqlarla da təchiz edilib.

Bu gün də respublikanın şimal bölgəsində yeni mənzillərin tikintisi davam edir. Evi qəzalı duruma düşən bütün vətəndaşlara yeni mənzillər tikilir. Aparılan bütün işlər Prezidentin diqqət mərkəzindədir.

### Rəy sorğusu: Prezident vədlərini yerinə yetiribmi?

Bütün deyilənlər bir daha təsdiq edir ki, Azərbaycanda xalq liderinə, lider isə öz xalqına güvənir. Dar gündə də, şad gündə də xalqın yanında olan İlham Əliyev, özünün də dediyi kimi, hər zaman bu dəstəkdən güc alıb.

Bu həqiqətlər ölkədə keçirilən rəy sorğularında da öz əksini taparaq əsl reallığı ortaya çıxarıb. Belə ki, Fransanın "Opinion Way" şirkətinin 2019-cu ilin mart ayında Azərbaycanda keçirdiyi rəy sorğusunun yekunlarına əsasən ölkənin bütün bölgələrində apardığı sorğularda respondentlərin 85,1 faizi İlham Əliyevin son bir ildə gördüyü işləri müsbət qiymətləndirdiyini bildirib.

"Opinion Way"in "Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatları necə qiymətləndirirsiniz" sualına sorğuda iştirak edənlərin 90,5 faizi müsbət cavab verib. Rəyi soruşulanların mütləq əksəriyyəti, 80 faizə qədəri Prezidentin öz seçkiqabağı vədlərini tam yerinə yetirdiyi qənaətindədir.

### Yeni uğurlara doğru qələbələr yolu ilə...

Göründüyü kimi, verdiyi vədləri hər zaman yerinə yetirən Prezident xalq tərəfindən bütün zamanlarda dəstəklənib. Bir il ərzində ölkənin sosial həyatında baş verən hadisələrə nəzər yetirsək görərik ki, vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, özünəməxsus təmkin və həssaslıqla onların problemlərini dinləyən və dərhal həlli üçün qəti tapşırıqlar verən İlham Əliyevin atdığı addımlar xalqın Prezidentinə olan etimadını daha da artırıb. Xalq inanır ki, Azərbaycan İlham Əliyevlə daha möhtəşəm, qüdrətli dövlətə çevriləcək.

Elə aprelin 18-də keçirilən andiçmə mərasimində İlham Əliyev qazanılan uğurları dəyərləndirib, qarşıdakı hədəfləri açıqlayarkən vurğulamışdı ki, bütün bu uğurlar ancaq müstəqillik dövründə qazanılıb və xalq müstəqilliyin üstünlüyünün nədən ibarət olduğunu görür. Ona görə də müstəqillik bizim üçün ən böyük sərvət, ən böyük nemətdir. Azərbaycan bundan sonra da yeni-yeni uğurlara doğru müstəqillik və qələbələr yolu ilə gedəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





# Talassemiyasız həyata doğru

## Azərbaycanda da sosial bəlaya çevrilən talassemiyaya qarşı effektiv mübarizə Mehriban Əliyevanın şəxsi nəzarəti altındadır



*Əvvəli 1-ci səh.*

Beləliklə, biz bu gün bu problemin həlli yolunda birinci addımı birlikdə atdıq. Heydər Əliyev Fondu bu istiqamətdə hər bir yardımı dəstəkləyir və təklifləri gözləyir" - bu fikirləri 2005-ci ildə Birinci vitse-prezident Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə talassemiya problemlərinə həsr olunmuş "Talassemiyasız həyat naminə" mövzusunda keçirilən tədbirdə səsləndirmişdi.

Artıq bu gün həmin tədbirdə qarşıya qoyulan xeyli hədəflərə çatılıb və ən əsası da xəstəliyin artmasının qarşısının alınması istiqamətindəki işlər uğurla həyata keçirilib və proses bu gün də müvəffəqiyyətlə davam edir.

Qeyd edək ki, 2009-cu ildə istifadəyə verilən Talassemiya Mərkəzinin açılışında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva da iştirak edib.

Uşaqların sağlamlığının qorunması prioritet istiqamətlərindən biri olan Heydər Əliyev Fondunun proqramı çərçivəsində inşa olunmuş 5 mərtəbəli binanın interyerinə və dizaynına xüsusi diqqət yetirilmiş, bu zaman həkimlərin, memarların, dizaynerlərin və psixoloqların məsləhətləri nəzərə alınmışdır.

Mərkəz üçün seçilən antibakterioloji ləvazimat xəstələrin yaşı nəzərə alınmaqla əlvan rəngli və müsbət enerji verən dizayna uyğunlaşdırılmışdır.

Burada ultrasəs müayinəsi, donor mərkəzi, iki hissədən ibarət transfuziya zalı, manipulyasiya və şüa diaqnostikası, iliyin köçürülməsi üçün əməliyyat otağı, sterilləşdirmə mərkəzi, molekulyar diaqnostika laboratoriyası və digər otaqlar yerləşir.





### Əhalinin 5-7 faizi talassemiya geninin daşıyıcısıdır

Talassemiya irsi qan xəstəliklərinə aiddir və dünyanın bir çox ölkələrində olduğu kimi, ölkəmizdə də aktual problemlərdən biridir. Xüsusilə bu xəstəlik Aralıq dənizi hövzəsində yerləşən ölkələrin problemi kimi bilinir. Daha çox Yunanıstan, Türkiyə, Kipr, İtaliya və Azərbaycanda, qismən də bəzi Orta Asiya və Ərəb ölkələrində, xüsusilə də İraqda geniş yayılmış xəstəlikdir.

Talassemiya Mərkəzinin icraçı direktoru Valeh Hüseynov söyləyir ki, talassemiya genetik bir problem olduğu üçün, çox böyük aktuallıq kəsb edir. Problemin digər tərəflərindən biri də bu genin daşıyıcısının həddindən çox olmasıdır. Ölkəmizdə son illər aparılan hesablamalara görə, əhalinin 5-7 faizində talassemiya geninin daşıyıcılığı mövcuddur. Bu isə o deməkdir ki, genin daşıyıcıları bir-biri ilə ailə qurduqda bu cütlüklərdə talassemiya xəstələrinin doğulma ehtimalı yüksək olur.

Valeh Hüseynov məlumat verir ki, hazırda mərkəzdə 3500-ə yaxın qeydiyyatda olan xəstə var. Onların içərisində təxminən 1200-ü qan ehtiyacı olanlardır. Bu pasientlər mütəmadi olaraq mərkəzdə, yaxud ölkənin digər bölgələrində 2-4 həftədən bir qan transfuziyası alırlar: "Talassemiyanın əsas problemi qan azlığıdır. Bununla əlaqədar orqanizmdə müəyyən dəyişikliklər yaranır. Xüsusən, qısa zamanda bunu uşaqlarda müşahidə edə bilmiriksə, 4-5 yaşa çatanda onların sümüklərində müəyyən dəyişikliklər özünü göstərir. Qan yastı sümüklərin içərisində olan sümük iliyində yaranır. Əgər həmin sümüklərdə problem varsa, mütləq onlarda genişlənmə, ölçülərinin dəyişilməsi baş verir, xüsusilə uşaqların sifətində bu özünü göstərir, tədricən digər problemlər də üzə çıxır. İnkişafdan qalma, bəzən ürək, qaraciyər və digər orqanlarda yaranan müəyyən problemlər kimi".

### Radikal müalicə

İcraçı direktor söyləyir ki, xəstəliklə bağlı yaranan problemlərin azalması üçün mütəmadi olaraq xəstələrə eritrosid kütləsi, yəni qan transfuziyası müalicəsi edilir: "Amma bir tərəfdən də hemoqlobin səviyyəsini düzəldərkən orqanizmə böyük miqdarda dəmir yükləyirik. Hər köçürdüyümüz qan məhsulunun içərisində xeyli miqdarda dəmir var və bu həmin pasientlərin bədənində toplanır, xüsusən onların sevdiyi yer qaraciyər və ürək toxumalarıdır. Bu isə gələcəkdə xəstələrdə qaraciyər problemi, ürək çatışmazlığı, eyni zamanda endokrin vəzlərdə inkişafdan qalma kimi problemlərə səbəb olur. Sümüklərin özündə destruktiv dəyişikliklər osteoporoz yaranır, sümük ağrıları olur. Bunun qarşısını almaq üçün ən müasir səviyyədə hazırlanmış, orqanizmdə olan artıq dəmiri çıxaran xelator dediyimiz dərman preparatlarına ehtiyac var ki, həmin dərmanla xəstələrimiz mərkəzimizdə və regionlarımızda təmin olunurlar".

Talassemiya xəstəliyinin radikal müalicəsi sümük iliyinin transplantasiyasıdır. Artıq 2013-cü ildən etibarən mərkəzdə transplantasiya aparılır və hazırda bu əməliyyatın sayı 75-i keçib. Bu, mərkəz üçün çox böyük göstərici və təcrübə hesab edilir. Valeh Hüseynov diqqətə çatdırır: "Müalicə üsullarının uğuru düzgün və yüksək səviyyədə aparılan genetik müayinələrdən asılıdır. Mərkəzdə bu sahədə də yüksək səviyyədə iş aparılır. Ən vacib məsələlərdən biri də, xəstəliklərin müalicəsi yox, profilaktikasıdır. Çalışdığımız və gördüyümüz işlər profilaktik tədbirlərin inkişaf etdirilməsi və bölgələrə yayılmasıdır. Həmçinin vaxtında diaqnozların qoyulması və perinatal diaqnostikadır. Artıq hamiləlik baş verəndən sonra, 16-18-ci həftəsində dölyanı mayedən götürülmüş materialdan uşağın xəstə olub-olmaması təyin olunur. Təbii ki, bu yolla da valideynlər daha erkən mərhələdə uşaqlarının sağlamlığı barədə məlumatlı olur. Əgər artıq daşıyıcılar ailə qurublarsa, onların uşaq planlamaları üçün genetik konsultasiyalar aparılmalıdır. Bu zaman isə sağlam olacaq uşağın planlaşdırılması aparılır və həmin ailənin də sağlam uşaqları dünyaya gəlir. Əgər profilaktik tədbirlərin aparılmasını düzgün təşkil edə bilsək, qısa müddətdə ölkəmizdə bu problemi minimuma endirə və gələcəkdə tam həll edə bilərik".










### Görülən tədbirlərin bəhrəsi

Qeyd edək ki, Prezidentin sərəncamına əsasən, 2015-ci ildən etibarən bütün nikaha girən cütlüklərin müayinəsinə başlanılıb və irsi qan xəstəlikləri yoxlanılır.

Valeh Hüseynov məlumat verir ki, rəsmi məlumatlara əsasən, artıq bu ildən başlayaraq görülən tədbirlər öz bəhrəsini verməyə başlayıb. Belə ki, əvvəllər illik təxminən 200-300-ə yaxın yeni talassemiya xəstələri qeydə alınırdısa, bu il o rəqəmlərdə 30-40 faiz azalma müşahidə edilir: "Bir çox Avropa ölkələri demək olar ki, yeni doğulan talassemiyalı xəstələrin sayını sıfıra endiriblər və bu baş verdikdə digər talassemiyalı xəstələrin müalicəsi daha yüksək səviyyədə aparılır, onlara göstərilən xidmət daha yaxşı olur. Bu xəstələrin yaşama müddəti də uzanır, cəmiyyətin normal vətəndaşına da çevrilir, yaşadıqları və çalışdıqları yerdə ölkəmizə daha böyük fayda vermiş olurlar..."

### Gənclər bilsələr ki...

"Talassemiya probleminin aradan qaldırılması üçün əsas çıxış yolu maarifləndirmədir" - söyləyən icraçı direktor məlumat verir ki, ötən ilin oktyabrından etibarən bölgələrimizdə "Talassemiyasız həyat naminə" devizi altında simpoziumlara başlanılıb. Artıq Mingəçevirdə, Qaxda, Lənkəranda, Qubada, Şirvanda, Bərdədə simpoziumlar aparılıb, bundan sonra isə Gəncə və Bakıda keçirilməsi planlaşdırılır: "Məqsəd ölkəmizin regionlarında yaşayan xəstələrimiz, onların valideynləri, orada çalışan tibbi personalın bu sahədə maarifləndirilməsidir. Vacibdir ki, insanlar talassemiya haqqında məlumatlı olsunlar. Hər evdə, hər məktəbdə, təhsil ocağında bu problemdən danışıb onu yaxın gələcəkdə həll etmək mümkündür. Belə olmasa, bu bizim gələcəkdə genefondumuzun düzəlməsinə kömək etməz. Əgər gənclər, daşıyıcılar ailə quranda uşaqlarının xəstə olması, qarşıda onları hansı sosial problemlər gözlədiyini bilsələr, heç zaman bu addımı atmazlar".

### "Onun bu dünyaya gəlməsinə razı olardımmı?!"

18 yaşlı qızı ilə bərabər qan transfuziyasına gələn Xumar adlı valideyn söyləyir ki, illərdir qızının ağrılarını bir az da olsa azaltmaq üçün mübarizə aparır: "Onun talassemiya olduğunu öyrənəndə dünyam qaraldı. Əvvəllər bu xəstəliklə bağlı yoxlanış aparılmadığı üçün bilməmişəm ki, talassemiya daşıyıcısıyam. İndi düşünürəm ki, görəsən, o zaman talassemiya daşıyıcısı olduğumu bilsəydim, qızımın bu dünyaya gəlməsinə razı olardımmı? Amma bu çox ağır hissdir və hətta cavabını özümə belə etiraf etməkdən qorxuram..."

Deyir ki, indi bu həyatda yalnız bir amalı var: "Balam gəncliyini yaşaya bilmir. Hər keçən günün onu ölümə bir addım daha yaxınlaşdırdığını bilə-bilə yaşamaq elə mənim üçün ölüm deməkdir. Qızım həkim olmaq istəyir. İndi mənim də ən böyük arzumdur ki, qismət olsa, onu ağ gəlinlikdə olmasa da, ağ xalatda görə bilim..."

Mərkəzin Konsultasiya Poliklinika şöbəsinin müdiri Zemfira Mirzəyeva məlumat verir ki, xəstə uşaqların müalicəsinin müsbət yöndə irəliləməsinin bir şərti də valideyn diqqətidir: "O övladının müalicəsini axsatmırsa, dəmirqovucu dərmanları vaxtlı-vaxtında verirsə, nəticə də yaxşılaşır. Bütün bunlara riayət etdikdə talassemiya xəstələri əvvəllər olduğu kimi 10-15 yaşında ölmürlər. Həmin xəstələr institut da qurtarırlar, işləyirlər, ailə də qururlar. Artıq onların yaş dövrü artıb 35-40 yaşa çatıb, amma bütün bunlar valideynlərdən asılıdır. Talassemiya xəstələrin həyat tərzidir və düzgün riayət etdikdə, onlar uzun müddət yaşaya bilərlər".

### Daim diqqət mərkəzində

Talassemiya Mərkəzi daim Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın diqqətindədir.

Mütəmadi olaraq Leyla xanım Əliyeva mərkəzi ziyarət edir, burada müalicə alan uşaqlarla maraqlanır, onların sağlıqla yanaşı, digər problemlərinin həlli istiqamətindəki işlərin həyata keçirilməsində də kömək göstərir. Bütün əlamətdar günlərdə, bayramlarda daim mərkəzdəki uşaqlara qayğı göstərilir.

Ötən il isə Mehriban xanım Əliyeva yenidən mərkəzi ziyarət edərək, burada müalicə olunan uşaqlarla görüşüb, onlarla söhbət edərək müalicələrinin gedişi ilə maraqlanıb.

Bildirək ki, Prezident İlham Əliyevin sərəncamları əsasında genetik xəstəliklər olan hemofiliya və talassemiyaya dair dövlət proqramı qəbul olunub. Həmin proqram 2005-ci ildən fəaliyyətə başlayıb və proqrama əsasən, bu günə qədər bütün irsi qan xəstəlikləri, o cümlədən talassemiya və hemofiliyalı xəstələrin dərman təminatı, müalicəsi pulsuz həyata keçirilir.

O cümlədən, 10 ildən artıqdır ki, ölkəmizdə talassemiya, eləcə də irsi qan xəstəliklərindən əziyyət çəkənlər üçün qanvermə aksiyaları keçirilir və ölkə ictimaiyyəti bu xeyriyyə aksiyalarında fəal iştirak edir.

Bu yaxınlarda Yeni il ərəfəsində göstərilən "Cırtdan şou" adlı proqramdan əldə olunan bütün vəsait də Talassemiya Mərkəzinə köçürülüb...

### Talassemiyasız həyat mümkündür

Ən müasir avadanlığın quraşdırıldığı Talassemiya Mərkəzinin istifadəyə verilməsi ilə Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılmasına, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təminatı üçün könüllü donor xidmətinin inkişaf etdirilməsinə, talassemiyanın yayılmasının qarşısını almaqdan ötrü əhalinin maarifləndirilməsinə, ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanmasına nail olunub.

Bütün bunlar isə onu deməyə əsas verir ki, Azərbaycanda talassemiyasız həyat mümkündür və buna az qalıb...

Yetər ki, hər birimiz bu amansız xəstəlik barədə məlumatlı olaq, onun dünyaya gələcək körpələrin həyatını məhv etməsinə imkan verməyək...

*Belə olarsa, bu gün Talassemiya Mərkəzinin palatalarında, dəhlizlərində, transfuziya otağında çarəsiz valideynlərlə, ağrı-acıdan əzab çəkən körpələrlə bir daha rastlaşmarıq...*

***Yasəmən MUSAYEVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Varşavada Polşanın Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini tanınmasına həsr edilən xatirə lövhəsi açılıb



Polşaya səfəri çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov 1920-ci ildə Polşa Respublikası tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin tanınmasına həsr edilmiş xatirə lövhəsinin açılış mərasimində iştirak edib. Tədbirdə, həmçinin Polşa Respublikasının xarici işlər naziri Yaçek Çaputoviç də iştirak edib.

XİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərasimdə çıxış edən nazir Elmar Məmmədyarov Azərbaycan və Polşa arasında tarixi əlaqələrin mövcud olduğunu qeyd edərək Azərbaycanın Polşadakı səfirliyinin araşdırmaları nəticəsində Polşa arxivlərindən iki ölkə arasındakı münasibətlərə həsr olunmuş maraqlı sənədlərin üzə çıxdığını bildirib. Bu xüsusda, nazir Elmar Məmmədyarov 1920-ci ilin 13 fevral tarixində Polşa xarici işlər naziri Stanislav Patekin Azərbaycan Hökumətinə teleqram ünvanlayaraq Polşanın Azərbaycan Xalq Cümhuriyyətini de-fakto tanıdığını diqqətə çatdırıb. Həmçinin 1918-ci ildə Polşa diplomatı Vaslav Ostrovskinin Polşanın Azərbaycandakı diplomatik nümayəndəsi təyin olunduğu qeyd edilib. Nazir Elmar Məmmədyarov 100 il bundan əvvəl Polşa diplomatlarının Azərbaycan üçün göstərdiyi fəaliyyəti yüksək dəyərləndirərək, iki ölkə arasındakı bağların bu gün də güclü olduğunu və tərəflər arasında strateji əlaqələrin mövcudluğunu diqqətə çatdırıb.

Polşa xarici işlər naziri Yaçek Çaputoviç iki ölkə arasında münasibətlərin tarixi əhəmiyyətinə həsr edilmiş xatirə lövhəsinin açılışını yüksək qiymətləndirib. Polşanın 100 il bundan əvvəl dövlətlərin suverenliyinin dəstəklənməsi istiqamətində fəal iş apardığını və bu siyasətin bu gün də davam etdirildiyini vurğulayıb. Polşalı mütəxəssislərin XX əsr ərzində Azərbaycanın ictimai-siyasi həyatına verdiyi töhfəyə toxunan polşalı nazir Azərbaycanın neft hasilatı, Bakının arxitekturasının inkişafı və digər sahələri xüsusi qeyd edib.

Nazirlər Azərbaycan-Polşa münasibətlərinə dair ətraflı fikir mübadiləsinin ikitərəfli görüşdə davam etdiriləcəyini vurğulayıblar.

# Azərbaycanın və Polşanın xarici işlər nazirlərinin görüşü olub

Polşa Respublikasına səfəri çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov bu ölkənin xarici işlər naziri Yaçek Çaputoviç ilə görüşüb.



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə nazirlərin təkbətək görüşü olub. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar prosesi haqqında məlumat verən nazir Elmar Məmmədyarov münaqişənin beynəlxalq hüququn prinsipləri və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinin vacibliyini diqqətə çatdırıb. Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılmasının zəruriliyini vurğulayan nazir Elmar Məmmədyarov Polşanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiyinə görə həmkarına təşəkkürünü bildirib.

Eyni zamanda, Azərbaycanın iştirakı və təşəbbüsü ilə həyata keçirilən mühüm enerji və infrastruktur layihələri haqqında məlumat verən nazir Elmar Məmmədyarov bu xüsusda "Cənub qaz dəhlizi"nin əhəmiyyətini diqqətə çatdırıb. Eləcə də Trans-Xəzər və Cənub-Qərb nəqliyyat dəhlizləri haqqında danışan nazir Elmar Məmmədyarov Azərbaycanın Polşa ilə bu istiqamətdə əməkdaşlıq etdiyini və bu münasibətlərin dərinləşdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Nazir Yaçek Çaputoviç iki ölkə arasındakı münasibətlərin hazırkı durumunu yüksək qiymətləndirib. O, Polşanın Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələri ilə əməkdaşlığını dəstəklədiyini vurğulayaraq ölkəsinin Azərbaycanla enerji sektorunda əməkdaşlığın inkişafında maraqlı olduğunu xüsusi qeyd edib.

Nazirlər iki ölkə arasında qarşılıqlı səfər mübadiləsi, ticarət dövriyyəsinin artırılması və müqavilə-hüquq bazasının genişləndirilməsi kimi məsələləri müzakirə ediblər.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Daha sonra nazirlər birgə mətbuat konfransı keçiriblər.

# *Kşiştof ŞÇERSKİ:* "Azərbaycan-Polşa əlaqələri strateji xarakter daşıyır"



Polşa Respublikasına rəsmi səfəri çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov Polşa Prezidenti Kabinetinin rəhbəri, dövlət katibi Kşiştof Şçerski ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə K.Şçerski iki ölkə arasında olan siyasi münasibətlərin əhəmiyyətini, bu əlaqələrin strateji xarakter daşıdığını vurğulayıb. O, Polşa tərəfinin bu əlaqələrin inkişaf etdirilməsi üçün əlindən gələni əsirgəməmək niyyətində olduğunu bildirib. Bu xüsusda, Polşanın mərhum Prezidenti Lex Kaçinskinin dövründə ikitərəfli əlaqələrin çox yüksək səviyyədə inkişaf etdiyi yada salınıb və əlavə edilib ki, Polşa tərəfi bu münasibətlərin yenidən həmin səviyyəyə qaldırılması arzusundadır.

Nazir Elmar Məmmədyarov Polşaya səfəri zamanı keçirdiyi görüşlərdən bəhs edərək iqtisadi əməkdaşlıq, o cümlədən enerji, nəqliyyat və digər sahələrdə mövcud perspektivlərin müzakirə edildiyini bildirib. Eyni zamanda, K.Şçerskiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması üzrə aparılan danışıqlar prosesi barədə məlumat verib. Nazir Polşa tərəfinə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq miqyasda tanınmış sərhədlərinin toxunulmazlığını dəstəklədiyinə görə təşəkkür edib.

Söhbət əsnasında Polşa tərəfi bir daha Azərbaycanla enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu bildirib.

Tərəflər, həmçinin "Şərq Tərəfdaşlığı"nın gələcək perspektivləri və Avropa İttifaqı tərəfindən bu proqramın inkişaf etdirilməsinə daha güclü dəstəyin göstərilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə Şərqi Avropa məkanında olan vəziyyət və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

# Bakıda Azərbaycan və Gürcüstan Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib

Aprelin 17-də Bakıda Azərbaycan və Gürcüstan Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Ramiz Həsənov, Gürcüstan tərəfindən isə xarici işlər nazirinin müavini Laşa Darsaliya rəhbərlik ediblər.

Tərəflər iki qonşu ölkə arasında mehriban qonşuluq şəraitində inkişaf edən qarşılıqlı faydalı strateji tərəfdaşlıq münasibətlərinin bütün bölgənin tərəqqisi üçün vacib amil olduğunu məmnuniyyətlə qeyd ediblər. Tərəflər Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TAP, TANAP və digər enerji dəhlizləri, habelə iki ölkənin iştirak etdiyi müxtəlif regional əməkdaşlıq layihələrinin Cənubi Qafqazda iqtisadi inkişafın əsaslarını təmin etməklə yanaşı, sabitlik və təhlükəsizliyin bərqərar olunmasına da xidmət etdiyini vurğulayıblar.

Tərəflər Azərbaycan ilə Gürcüstan arasında dövlət və hökumət başçıları səviyyəsində daimi əsasda davam etdirilən siyasi dialoqun müstəsna rolunu önə çəkiblər. Qeyd olunub ki, bugünədək iki ölkə arasında 109 sənədin imzalanması və bir sıra sazişlərin baxılmaqda olması əməkdaşlığın davamlı şəkildə inkişaf etdirilməsindən xəbər verir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması ilə əlaqədar aparılan danışıqlar prosesi və Gürcüstan ərazisində olan münaqişələrlə bağlı vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Bununla yanaşı, Azərbaycan ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın fəaliyyəti və biznes forumlarının təşkilinin ikitərəfli əməkdaşlığın zəngin potensialından daha səmərəli şəkildə faydalanmağa əlavə təkan verə biləcəyi barədə ümumi fikirlər səsləndirilib.

Eyni zamanda, hər iki ölkənin inkişafında vacib yer tutan turizm sektorunun təşviqi baxımından birgə təklifləri ehtiva edən konkret layihələr üzərində əməli işlərin uğurla tamamlanması barədə məmnuniyyət ifadə olunub.

Həmçinin cari ilin iyun ayında Batumidə təşkil ediləcək Azərbaycan mədəniyyət günlərinin humanitar sahədə əməkdaşlığa yeni təkan verəcəyinə dair əminlik ifadə olunub. Məsləhətləşmələr çərçivəsində ölkələrimiz arasındakı ikitərəfli əlaqələri tamamlayaraq onun keyfiyyətcə yeni müstəvidə inkişafına şərait yaradan Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatı xüsusi qeyd edilib.

Aparılan fikir mübadiləsi zamanı Azərbaycanın və Gürcüstanın BMT və digər müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının və qarşılıqlı dəstək göstərilməsinin perspektivləri müzakirə olunub və bu istiqamətdə birgə səylərin davam etdirilməsinə dair razılıq ifadə edilib.

Görüş əsnasında ikitərəfli və çoxtərəfli gündəliyə aid digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans işini başa çatdırıb





Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) aprelin 17-də işini başa çatdırıb.

AZƏRTAC xəbər verir ki, konfransın bağlanış mərasimində çıxış edən ABŞ Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyası (DEA) rəhbərinin səlahiyyətlərini icra edən **Uttam Dillon** narkotiklərin qanunsuz dövriyyəsinə qarşı uğurlu mübarizədə beynəlxalq əməkdaşlığın və tərəfdaşlığın vacibliyini qeyd etdi. Bildirdi ki, bu mübarizənin bütün iştirakçıları uğur qazanmaq üçün yüksək əzmkarlıq və güclü həmrəylik nümayiş etdirməlidirlər. Bu prosesdə yaxşı əlaqələndirilmiş fəaliyyət, düşünülmüş proqram və strategiyaların hazırlanması və uğurla reallaşdırılması vacib əhəmiyyət daşıyır. DEA öz fəaliyyətində məhz bu prinsiplərin həyata keçirilməsinə çalışır.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə qarşılıqlı məlumat və təcrübə mübadiləsinin vacibliyini diqqətə çatdıran Uttam Dillon DEA-nın bu sahədə müxtəlif beynəlxalq təşkilatlarla və ölkələrlə fəal əməkdaşlıq etdiyini deyib. O, Bakı konfransının yüksək səviyyədə təşkil olunduğunu və mühüm müzakirələrin aparıldığını vurğulayaraq dedi ki, Azərbaycan paytaxtından dünyaya yeni mesajlar göndərildi.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük general-leytenantı Səfər Mehdiyev bəşəriyyəti narahat edən başlıca problemlərdən olan narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə həsr olunmuş beynəlxalq konfransda səmərəli müzakirələrin aparıldığını bildirdi. Səfər Mehdiyev dedi ki, bu gün dünyada qaçaqmalçılıq, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsi bu sahədə peşəkar olan mütəşəkkil qruplar tərəfindən həyata keçirildiyi üçün ona qarşı mübarizə olduqca çətindir. Ona görə də aidiyyəti qurumlar və dövlətlər fəal informasiya və təcrübə mübadiləsi aparmalı, bu sahədə çalışan əməkdaşların peşəkarlığı artırılmalı, cəmiyyətdə geniş maarifləndirmə işi həyata keçirilməlidir. Bu mübarizədə yalnız birgə fəaliyyət və sıx əməkdaşlıq şəraitində qalib gəlmək mümkündür. Bakı konfransının da ən böyük əhəmiyyəti burada məhz beynəlxalq əməkdaşlığın, təcrübə və informasiya mübadiləsinin önəminin diqqət mərkəzində saxlanmasıdır.

Mötəbər konfransın ölkəmizdə yüksək səviyyədə təşkili ilə bağlı tapşırıqlarına və bilavasitə dəstəyinə görə dövlət başçısı İlham Əliyevə xüsusi minnətdarlığını bildirən Səfər Mehdiyev dedi ki, bu tədbirin ölkəmiz üçün əhəmiyyətini artıran ən mühüm amillərdən biri də dünyanın 115 ölkəsindən gəlmiş əcnəbi qonaqların Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti, dünyaya örnək təşkil edən multikultural ənənələri ilə tanış olmaq imkanıdır.

Səfər Mehdiyev çıxışının sonunda konfransın Bakıda keçirilməsi təşəbbüsünə görə DEA-ya, eləcə də tədbirin təşkilində zəhməti olan qurumlara və şəxslərə minnətdarlığını ifadə etdi.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri **Əli Həsənov** Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransda narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı səmərəli müzakirələrin, fikir və təcrübə mübadiləsinin aparılmasını yüksək qiymətləndirdi. Baş nazirin müavini diqqətə çatdırdı ki, konfrans çərçivəsində regional qrupların sessiyalarında müxtəlif qurumların, ölkələrin nümayəndələri maraqlı məruzələrlə çıxış etdilər, fəal müzakirələr apardılar.

Əli Həsənov bildirdi ki, konfransda 100-dən çox ölkənin təmsil olunması narkomaniyanın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin çox ciddi təhlükə olduğunu və bunun dövlətləri xeyli dərəcədə narahat etdiyini göstərir. Çünki narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi bəşəriyyətin gələcəyini təhdid edən ən başlıca problemlərdən biridir. Müharibələr və terrorizmin fəsadları dərhal hiss olunur. Lakin narkomaniya bilavasitə genofondu məhv etməklə bəşəriyyətin gələcəyi üçün ciddi təhlükə yaradır. Onun fəsadlarının təsiri illərlə davam edir. Buna görə də dünya ölkələri, aidiyyəti qurumlar və mütərəqqi ictimaiyyət narkotiklərlə mübarizəyə daha ciddi diqqət yetirməlidir.

Tədbirin ABŞ-ın Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının təklifinin Azərbaycan dövləti tərəfindən dəstəklənməsi sayəsində təşkil olunduğunu vurğulayan Baş nazirin müavini Prezident İlham Əliyevin konfransa böyük əhəmiyyət verdiyini vurğulayaraq dedi: "Bu mühüm tədbirin təşkilində hər iki tərəfin rolu böyükdür. Hər iki tərəf çox yüksək hörmətə və nüfuza malikdir. Prezident İlham Əliyev bu tədbirin Bakıda keçirilməsinə dərhal razılıq verdi. Bu tədbirə böyük önəm verən Azərbaycan dövlətinin başçısı konfransın yüksək səviyyədə keçirilməsi üçün aidiyyəti qurumlara tapşırıqlarını verdi, Təşkilat Komitəsinin yaradılması ilə bağlı sərəncam imzaladı. Konfransda Azərbaycanın aidiyyəti dövlət qurumları ən yüksək səviyyədə təmsil olundu. Bu, ölkəmizin narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə verdiyi böyük önəmin göstəricisidir".

Narkomanlığın, eləcə də narkotik vasitələrin qanunsuz dövriyyəsinin hər il minlərlə insanın həyatını itirməsi ilə nəticələndiyini vurğulayan Baş nazirin müavini bildirdi ki, qətiyyətli mübarizənin aparılması üçün konvensiyalar və mübarizə üsulları dövrün tələblərinə uyğunlaşdırılmalı, bu sahədə çalışan şəxslərin təhlükəsizliyi təmin olunmalıdır. Narkotiklərlə mübarizədə heç bir ölkə təkbaşına uğur qazana bilməz. Bu, dünya birliyinin əsas vəzifəsidir. Ona görə də bu sahədə beynəlxalq əməkdaşlıq daha da gücləndirilməlidir.

Sonra tədbirin təşkilində iştirak edən könüllülərə bütün iştirakçılar adından minnətdarlıq ifadə olundu.

Daha sonra bu sahədə uğurlu fəaliyyətinə və konfransın yüksək səviyyədə təşkilində bilavasitə iştirakına görə Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə DEA-nın adından təşəkkür plaketi təqdim olundu.

Beləliklə, Bakıda yüksək səviyyədə təşkil edilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans işini başa çatdırdı.

Xatırladaq ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəal iştirakı ilə təşkil edilən, "Qlobal tərəfdaşlıqların səfərbər edilməsi" mövzusuna həsr olunan üçgünlük Bakı konfransının məqsədi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qlobal mübarizəyə cəlb olunmuş yüksəkvəzifəli rəsmiləri bir araya gətirmək, bu bəşəri problemin həlli yollarını müzakirə etmək, fikir və qabaqcıl təcrübə mübadiləsi aparmaq idi.

Dünyanın 115 ölkəsindən 432 nümayəndənin qatıldığı beynəlxalq konfrans narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı mövcud olan müasir mübarizə üsullarından mütəxəssislərin bəhrələnməsi üçün əlverişli şərait yaradıb.

Beynəlxalq konfransın ölkəmizdə keçirilməsi barədə ABŞ Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının təklifi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 15 noyabr tarixli sərəncamı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Tədbirlə bağlı bəzi təşkilati məsələlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 dekabr tarixli Sərəncamına əsasən işçi qrupu yaradılıb və konfransın Tədbirlər Planı təsdiq edilib.

Bəşəriyyəti ciddi narahat edən, yeni təhlükələrə və bəlalara yol açan narkotiklərə tələbatın azaldılması yollarının tapılması baxımından nadir platforma olan beynəlxalq konfransın əsası 1983-cü ildə qoyulub. Sonradan o, 130-dan çox ölkədən olan nümayəndələrin iştirakı ilə keçirilən ümumdünya forumuna çevrilib.

Üçgünlük Bakı konfransında narkotiklərlə mübarizə üzrə müzakirələr aparılıb, Azərbaycan paytaxtından dünyaya yeni mesajlar verilib.

# Sergey Lavrov Azərbaycan, Ermənistan və Rusiya XİN rəhbərlərinin görüşünün yekunlarını şərh edib

Qarabağ münaqişəsinin nizamlanmasına dair təkliflər ərazi bütövlüyü, xalqların təyini-müqəddərat hüququ və güc tətbiq edilməməsi prinsipləri əsasında razılıq yolları axtarışını nəzərdə tutur.

AZƏRTAC xəbər verir ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov "Moskva-Baku" portalına müsahibəsində aprelin 15-də Moskvada Azərbaycan, Ermənistan və Rusiya XİN rəhbərlərinin görüşünün yekunlarını şərh edərək bu fikri söyləyib.

S.Lavrov həmin müzakirələrin 2016-cı ildə Rusiya tərəfindən təklif edilmiş plan əsasında aparılması barədə sualı şərh edərək deyib: "Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov xatırladıb ki, bu təkliflər həmin iclasın yekunları barədə müsahibələrin birində müzakirə olunub. Ona görə də burada mənim nə isə əlavə etməyimə ehtiyac yoxdur. Bu təkliflərin mahiyyətinə gəldikdə isə, onlar ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin - Rusiya, Fransa və Birləşmiş Ştatların rəhbərlərinin çoxsaylı bəyanatlarında təsbit edilmiş yanaşmalara uyğundur. Onlar münaqişə tərəfləri arasında ərazi bütövlüyü, xalqların təyini-müqəddərat hüququ və güc tətbiq edilməməsi prinsiplərinə əsaslanan razılıq yolları axtarılmasını nəzərdə tutur.

Mən sadəcə təklif edirəm ki, siz dövlət başçılarının bu silsilə bəyanatlarına və keçən ilin dekabr ayında Xarici İşlər Nazirləri Şurasının iclasında qəbul edilmiş son bəyanatlara nəzər salasınız. Bu işin bütün əsas istiqamətləri orada şərh olunub. Əlbəttə, təfsilat məxfi xarakter daşıyır".

Rusiyalı nazir daha sonra əlavə edib ki, görüşün yekunlarına əsasən humanitar tədbirlər barədə razılaşmalar birgə bəyanatda açıq şərh edilib. "Razılaşmaların mahiyyəti ondan ibarətdir ki, tərəflər, xüsusən kənd təsərrüfatı işləri aparılan dövrdə, vəziyyətin sabitləşməsi üçün səylərini artırmalıdırlar. Razılaşmalar insanların həbsxanada saxlanılan doğmalarına və yaxınlarına baş çəkmələri üçün şərait yaratmaqdan, KİV nümayəndələri də daxil olmaqla insanlar arasında əlaqələrin təşviq edilməsindən ibarətdir. Hesab edirəm ki, bu, çox faydalı razılaşmadır".

S.Lavrov xüsusən humanitar sahədə belə tədbirlər barədə əvvəl də razılıq əldə edilməsi, lakin bu razılaşmaların heç də həmişə yerinə yetirilməməsi barədə şərhləri oxuduğunu qeyd edib. Rusiya XİN başçısı deyib: "Bu həqiqətdir. Lakin Moskvada yaradılmış bu əlaqələrin yekunlarına əsasən deyə bilərəm: budəfəki razılaşmaların kağız üzərində qalmaması həm Yerevanın, həm də Bakının maraqlarına uyğundur. Biz buna kömək edəcəyik".

AZƏRBAYCAN www.azerbaijan-news.az

# "Şahdağ. Dağların şahı" sənədli filminin təqdimatı olub








*Aprelin 17-də Bakı Konqres Mərkəzində IDEA İctimai Birliyinin milli parklar haqqında sənədli filmlər silsiləsindən ibarət xüsusi layihəsi çərçivəsində çəkilmiş "Şahdağ. Dağların şahı" sənədli filminin təqdimat mərasimi keçirilib.*

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.

Ekran əsərinin təqdimatından əvvəl qonaqlar "Şahdağ. Dağların şahı" filminin rejissoru İqor Bışnyovun çəkilişlər zamanı lentə aldığı fotolardan ibarət sərgi ilə tanış olublar.

Sonra yeni yaradılmış Qızılağac Milli Parkından bəhs edən və hazırda çəkilişləri davam edən yeni filmdən kadrlar göstərilib.

Mərasimdə çıxış edən İqor Bışnyov "Şahdağ. Dağların şahı" layihəsinin təşəbbüskarı Leyla Əliyevaya təşəkkürünü bildirib, filmin altı il müddətdə davam edən çəkiliş prosesi ilə bağlı təəssüratlarını bölüşüb.

İqor Bışnyov Azərbaycanda ekoturizmin inkişafı üçün əlverişli imkanların olduğunu vurğulayıb.

Filmdə Cənubi Qafqazın ən böyük milli parkı olan Şahdağ Milli Parkının yaradılmasının məqsədi, burada məskunlaşan və 108-i Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilmiş fauna növləri, endemik və nəsli kəsilməkdə olan digər növlər və transsərhəd köçəri heyvanlar, ərazi üçün xarakterik olan müxtəlif flora növləri, böyük və əzəmətli qalaya bənzərliyi ilə insanı heyrətə gətirən Şahdağın landşaftı, ərazidə mövcud olan qlobal əhəmiyyətli dağ meşələri haqqında bəhs edilir.

IDEA-nın sözügedən layihəsi çərçivəsində 2014-cü ildə "Şirvan Milli Parkı", 2015-ci ildə "Quşlar cənnəti - Ağgöl Milli Parkı" və "Göygöl Milli Parkı", 2017-ci ildə "Azərbaycan. Ceyranların xilası", ötən il isə "Abşeron Milli Parkı" sənədli filmləri geniş ictimaiyyətə təqdim olunub. Layihə çərçivəsində ölkəmizin bütün milli parkları haqqında sənədli filmin hazırlanması nəzərdə tutulur.

IDEA İctimai Birliyinin təşəbbüsü ilə "Şahdağ. Dağların şahı" filmi ölkəmizin ali təhsil müəssisələrində, həmçinin İctimai Birliyin Bakı və Gəncə şəhərlərindəki Resurs mərkəzlərində nümayiş etdiriləcək. Bununla yanaşı, "Şahdağ. Dağların şahı" filminin digər ölkələrdə və müxtəlif beynəlxalq tədbirlər çərçivəsində də nümayişi nəzərdə tutulur.

IDEA-nın milli parklarla bağlı sənədli filmlər silsiləsi yaratmağında əsas məqsədi Azərbaycanın əsrarəngiz təbiət gözəlliklərini ölkə daxilində və xaricdə təbliğ etmək, eləcə də ətraf mühitin mühafizəsinin vacibliyini diqqətə çatdırmaqdır.





# Gəncədə alman irsinin izlərinə və memarlığına həsr edilən "Germanaijan" sərgisi açılıb



*Gəncədə alman irsinin izlərinə və memarlığına həsr edilən "Germanaijan" sərgisi açılıb.*

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov və Almaniyanın ölkəmizdəki səfiri Mixail Kindsqrab Gəncə Urban Mərkəzində təşkil olunan, Azərbaycanda alman irsinin izləri və memarlığına həsr edilən "Germanaijan" sərgisində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən səfir Mixael Kindsqrab sərginin Qafqaza köçən almanların əzmkarlığını, dözümlülüyünü və yaradıcılığını özündə əks etdirdiyini deyib. "Bu sərgi alman memarlığına həsr olunub. 200 il bundan öncə Azərbaycanda alman məskənləri salınıb. Ölkənizdə məskunlaşan almanların tarixi Gəncə və ətraf bölgələrin ərazisindən başlayıb. İlk alman qəsəbələri, məntəqələri məhz burada yaranıb. Bu sərgi bizim bərabər olan keçmişimizi nümayiş etdirir. Sərgi çərçivəsində bu suala cavab axtarılır: kimdir bu insanlar və onlar müasir Azərbaycana nəyi miras qoyublar?" - deyə səfir qeyd edib.



Bildirilib ki, "Germanaijan" memarlıq mövzusunu xüsusi diqqət mərkəzində saxlayır. Sərginin mərkəzi əsəri Bakının siluetində alman izlərinin əhəmiyyətini qrafik vizuallaşdıran xəritədir. Kağız modellər isə seçilmiş binalar haqqında ətraflı məlumat verir.

Qeyd edək ki, sərgi Cənubi Qafqazda alman yaşayış məntəqələrinin salınmasının 200 illik yubileyi çərçivəsində təşkil olunub. Sərgi Almaniya Federativ Respublikasının Azərbaycandakı səfirliyi tərəfindən, Almaniyanın Xarici İşlər Nazirliyinin "Mədəni irsin qorunması proqramı", Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və "Goethe-Zentrum Bakı"nın dəstəyi ilə reallaşıb.

# Dövlət Sərhəd Xidmətinin rəisi "Qazax" sərhəd dəstəsinin xidməti-döyüş fəaliyyətini yoxlayıb

*Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin Ermənistanla dövlət sərhədində yerləşən sərhəd döyüş məntəqələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb.*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlərin gedişi, "Qazax" sərhəd dəstəsinin xidməti ərazisindəki əməliyyat şəraiti, müdafiə mövqelərinin möhkəmləndirilməsi, mühəndis-istehkam tədbirlərinin gücləndirilməsi üzrə tapşırıqların icra vəziyyəti haqqında məruzələr dinlənilib.

Dövlət sərhədində müasir sərhəd mühafizə infrastrukturunun formalaşdırılması, sərhəd döyüş məntəqələrində yeni xidməti binaların inşa edilməsi, yeni yolların salınması, sənaye işığının və qaz xətlərinin çəkilməsi məqsədilə görülən işlərlə tanışlıq olub, bu fəaliyyətin gücləndirilməsi üzrə göstərişlər verilib.

Sərhəd döyüş məntəqələrində tikinti-inşaat işlərinin görülməsində fərqləndiklərinə görə Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə təltif edilmiş yerli sakinlər Anar Dünyamalıyevə, Səfərəli Abışova, Hüseyn Şahverdiyevə və Zaur Yusifova medallar təqdim olunub, bilavasitə təmas xəttində sərhədçilərlə birgə dövlət sərhədinin mühafizəsi üçün çalışdıqlarına görə minnətdarlıq ifadə edilib.

***"Azərbaycan"***

# Prezident Kitabxanasının "Bakı" elektron resursu istifadəçilərə təqdim edilib

Bakı müstəqil Azərbaycan Respublikasının paytaxtı, böyük elmi-mədəni və sənaye mərkəzidir. Bakı tarixinə, ərazinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin qədim və ən böyük şəhərlərindən biridir. Harada doğulmasından, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Bakını özünün doğma şəhəri hesab edir.

Şəhərin Abşeron yarımadasında coğrafi-strateji mövqedə yerləşməsi və zəngin karbohidrogen ehtiyatlarına malik olması onun keçmişlə müasirliyin vəhdətində meqapolis kimi formalaşmasına səbəb olub.

Bakı hələ şəhər infrastrukturunun formalaşmasından öncə də regionda marağı olan dövlətlərin, səyyahların və missionerlərin diqqətini cəlb edib. Bakı qədim dövrdən yaşayış məntəqəsi kimi məşhurlaşıb, orta əsrlərdən etibarən şərq-qərb, şimal-cənub nəqliyyat dəhlizinə çevrilib, tranzit liman şəhəri kimi formalaşıb. Müxtəlif dövrlərdə Şirvanşahlar dövlətinin, Bakı xanlığının, Bakı quberniyasının, Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Sovet Sosialist Respublikasının paytaxtı olub.

Dünyanın paytaxt şəhərləri arasında özünəməxsus yeri olan və multikultural dəyərlərin qorunub saxlanıldığı Bakı şəhəri müstəqil Azərbaycan dövlətinin paytaxtı kimi sürətlə inkişaf edib, müasir memarlıq abidələri ilə daha da zənginləşib. Paytaxt Bakı bu gün müxtəlif ölkələrdən gələn turistlərin və iş adamlarının daha çox bəyəndikləri bir məkana çevrilib. Bakıda bir çox dövlətlərin diplomatik korpusları, beynəlxalq təşkilatların və xarici şirkətlərin nümayəndəlikləri yerləşir. İstər Azərbaycan vətəndaşları, istərsə də xaricdən ölkəmizə gələn qonaqlar Bakı haqqında daha ətraflı məlumat əldə etmək istəyirlər.

İstifadəçilərin bu informasiya tələbatını nəzərə alaraq, Bakı şəhərinin tarixi keçmişi, müasir vəziyyəti haqqında onlara dolğun, sistemli və dəqiq məlumatın çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşları Azərbaycan, ingilis və rus dillərində "Bakı" elektron resursunu işləyib hazırlayıblar.

Prezident Kitabxanasından AZƏRTAC-a bildirilib ki, bu kitabxananın fondlarına daxil olan materiallardan istifadə edilməklə hazırlanan resursun kontenti 10 fəsildən, 40 bölmədən ibarətdir.

2019-cu il aprelin 17-də kitabxananın saytında yerləşdirilən elektron resursun 14 bölmədən ibarət birinci fəsli "Tarix" adlanır. Bu fəsildə Bakı tarixinin ən qədim dövrdən günümüzə qədər bütün mərhələləri xronoloji ardıcıllıqla ayrı-ayrı mətnlərdə istifadəçilərin nəzərinə çatdırılır. Həmin fəslin "Səyyahlar Bakı haqqında" bölməsində müxtəlif vaxtlarda Abşeron yarımadasında və Bakıda olmuş səyyahların şəhər haqqında təəssüratları öz əksini tapır.

Resursun ikinci fəsli "Paytaxt" adlanır və 8 bölmədən ibarətdir. Həmin bölmələrdə Bakı şəhərinin inzibati-ərazi bölgüsü, əhalisi haqqında dolğun məlumat verilib, şəhərin iqtisadiyyatı, təhsil, mədəniyyət, turizm və idman sahələri ayrı-ayrılıqda təhlil edilib. Bu fəsildə, həmçinin Bakı şəhərinin rəmzləri və atributları haqqında materiallar tarixi ardıcıllıqla işıqlandırılıb.




"Bakı" elektron resursunun "Memarlıq" adlanan fəsli 5 bölmədən ibarətdir. Bu fəsildə Bakının qədim dövrlərdən başlamış müstəqillik dövrü də əhatə olunmaqla şəhər memarlığının inkişaf mərhələləri xronoloji ardıcıllıqla əks etdirilib. Bakının ən qədim hissəsi olan İçərişəhər və onun dünya və ölkə əhəmiyyətli tarixi-memarlıq abidələri haqqında bu fəsildə əyani təsvirlərlə ayrı-ayrılıqda məlumat verilib. XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakının bir sənaye şəhəri kimi formalaşdığı dövrün memarlığına ayrıca bölmə həsr edilib. Sovetlər dövründə Bakı şəhərinin görkəmi bir sıra nadir memarlıq inciləri ilə daha da zənginləşib. Bakı memarlığının həmin dövrü də ayrıca bölmədə işıqlandırılıb. Bu fəslin "Müstəqillik dövrü" adlanan növbəti bölməsində müasir və eyni zamanda, özündə milli xüsusiyyətləri birləşdirən yeni yaşayış komplekslərinin salınması, parkların, inzibati və ictimai binaların inşa edilməsi, yeni-yeni memarlıq abidələrinin ucaldılması haqqında ətraflı məlumat verilib. Həmin fəslin sonuncu bölməsi "Köhnə və yeni adlar" adlanır. Bu bölmədə köhnə Bakının küçələrinin və meydanlarının müasir adlarla qarşılığını özündə əks etdirən siyahı oxuculara təqdim edilir.

Resursun növbəti fəsli "Sənədlər" adlanır. Bu fəsildə Bakının tarixinə dair sənədlər "Orta əsrlər", " Rusiya imperiyası dövrü", "Xalq Cümhuriyyəti dövrü", "Sovetlər dövrü" və "Müstəqillik dövrü" adlanan bölmələrdə toplanıb.

"Xronologiya" adlanan fəsildə qədim dövrdən bugünümüzə qədər Bakının tarixində baş vermiş mühüm hadisələrin qısa xronologiyası öz əksini tapıb.

Resursun növbəti fəsli "Görkəmli şəxslər" adlanır. Bu fəsildə Bakıda doğulan, ölkə və dünya miqyasında dövlətçilik, elm və texnika, mədəniyyət, incəsənət, idman və digər sahələrdə xüsusi xidmətləri olan şəxslər haqqında qısa bioqrafik məlumatlar əlifba sırası ilə verilib.

"E-Resurslar" fəslinin "E-kitablar" bölməsində Bakı şəhərinin tarixinə, iqtisadiyyatına, mədəniyyətinə, memarlığına, görkəmli bakılılara aid kitabxananın fonduna daxil olan müxtəlif dillərdə 120-yə yaxın kitabın elektron versiyaları toplanıb. Həmin kitabların bir qismi kitabxananın Nadir ədəbiyyat fondunda saxlanılır və XX əsrin əvvəllərində nəşr edilib. "E-məqalələr" bölməsində isə Azərbaycan, rus və ingilis dillərində Bakı şəhərinə aid 166 məqalənin elektron versiyası istifadəçilərə təqdim edilir.

Resursun "Biblioqrafiya" fəslində Prezident Kitabxanasının fondlarına daxil olan Bakı şəhərinə aid müxtəlif dillərdə 530 kitabın biblioqrafik təsvirləri toplanıb.

"Bakı" elektron resursunun maraqlı fəsillərindən biri də "Fotoqalereya" adlanır. Bu fəsildə 100-dən çox nadir şəkil "Köhnə Bakı" və "Müasir Bakı" başlıqları altında istifadəçilərə təqdim edilir.

"Videoqalereya" adlanan sonuncu fəsildə köhnə və müasir Bakıya həsr olunmuş sənədli filmlər toplanıb.

**http://bakucity.preslib.az** ünvanında təqdim edilən elektron resursun materialları müntəzəm olaraq yenilənilir.

# Xəzər dənizi məsələlərinə dair Yüksək Səviyyəli İşçi Qrupun iclası keçirilib

Aprelin 16-17-də Nur-Sultan şəhərində Xəzər dənizi məsələlərinə dair Yüksək Səviyyəli İşçi Qrupun ikinci iclası keçirilib.

İclası Qazaxıstanın xarici işlər naziri Beybit Atamkulov açıb. O vurğulayıb ki, Yüksək Səviyyəli İşçi Qrupun qarşısında duran vəzifələr böyük əhəmiyyət daşıyır, əməkdaşlıq məsələlərinin geniş spektri və Xəzərdə fəaliyyətin həyata keçirilməsi üzrə tərəflər arasında nəzərdən keçirilən beştərəfli sazişlərin layihələri üzərində işlərin daha fəal aparılması zəruridir. 2019-cu ildə Türkmənistanda birinci Xəzər İqtisadi Forumunun keçirilməsinin əhəmiyyəti də qeyd olunub.

Danışıqlarda Xələf Xələfovun rəhbərlik etdiyi Azərbaycan Respublikasının, həmçinin İran İslam Respublikasının, Qazaxıstan Respublikasının, Rusiya Federasiyasının və Türkmənistanın nümayəndə heyətləri iştirak edib.

Tərəflər Xəzər dənizində düz çıxış xətlərinin müəyyən edilməsi metodikası haqqında Sazişin layihəsi ətrafında müzakirələri davam etdirib və onun bir neçə müddəalarını razılaşdırıblar. Bu sənədin müzakirəsi növbəti iclasda davam etdiriləcək.

İclas çərçivəsində tərəflər Xəzər dənizində əməkdaşlığın müxtəlif aspektlərinin icmalını nəzərdən keçiriblər və beşinci Xəzər Sammitinin yekunlarına dair əldə olunmuş razılaşmaların həyata keçirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Nümayəndə heyətləri aparılan danışıqların nəticələrini müsbət qiymətləndiriblər və görüşün yüksək səviyyədə təşkilinə görə Qazaxıstan tərəfinə təşəkkür ediblər.

Xəzər dənizi məsələlərinə dair Yüksək Səviyyəli İşçi Qrupun növbəti iclası 2019-cu ilin iyulunda İranda keçiriləcək.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Şamaxıda vətəndaşları qəbul edib

*Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov aprelin 17-də Şamaxıdakı Heydər Əliyev Mərkəzində Şamaxı, Ağsu, İsmayıllı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.*

Qəbul zamanı hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququnun verilməsi, həlak olmuş övladlarına şəhid statusunun verilməsi, veteran adının və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlərlə bağlı olub.

On beş vətəndaşın iştirak etdiyi qəbulda bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib.





# Tarixin izi ilə





● 18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür

**Dövrün daşlaşmış səhifələri kimi, abidələr, qalalar zamanın "danışan tarix"inə çevrilir, minilliklərdən soraq verir. Bu mənada hər bir xalqın varlığını sübut edən tarixi yadigarlar içərisində abidələrin özünəməxsus yeri və rolu danılmazdır. Çünki onların meydana gəlməsinə qədər əsrlər, minillər keçib. Zaman-zaman dəyişilən ictimai-iqtisadi formasiyalar, mədəniyyətlərin qovuşması, yaxud ayrılması bu tarixi şahidlərin sinəsinə həkk olunub. Ona görə də abidələrin mühafizəsi labüddür.**




# Daşlaşmış yadigarlar

## İşğal altında qalan Azərbaycanın maddi mədəniyyət nümunələri də erməni vandalizmi siyasətinin qurbanlarına çevrilib






Xalqımızın mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz bir parçasıdır. Məhz elə buna görə də çoxəsrlik tarixi keçmişimizdən yadigar qalan mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edir. Onların bəşəri əhəmiyyətini nəzərə alan UNESCO-nun Dünya İrs Komitəsi tərəfindən nəşr olunan "Dünya İrs" jurnalı İçərişəhər, Şirvanşahlar sarayı və Qız qalasının qurumun təhlükədə olan irs siyahısından çıxarılması barədə məqalə dərc edib. Burada abidələrin mühafizəsi sahəsində Azərbaycanın əldə etdiyi uğurlar yüksək qiymətləndirilib.

Tarixi tədqiqatlar təsdiqləyib ki, Azərbaycan bəşər sivilizasiyasının ilk meydana gəlmiş ərazisində yerləşir. Təbii coğrafi mövqe və həyat şəraitinin təmini üçün zəruri mühitin olmasındandır ki, bu yerlər ilk insan məskənləri kimi tarixə yazılıb. Aparılan arxeoloji tədqiqatlar nəticəsində məlum olub ki, ulu babalarımız çox dəyərli maddi mədəniyyət nümunələri yaratmışlar. Bu abidələr hər bir xalqın və ya millətin tarixi, mədəniyyəti, bir sözlə, keçdiyi təkamül və inkişaf yolunun bariz sübutudur.

Maddi mədəniyyət abidələri ilə yanaşı, dini xarakterli məbədlər də bu yerlərin tarixinin qədimliyini və zənginliyini özündə əks etdirir. Coğrafi nöqteyi-nəzərdən harada tikilməsindən asılı olmayaraq, ilk növbədə onların təbii mühafizəsi nəzərə alınıb. Qobustan qayalıqları ilə Azıx mağarasında ilk insanın əl işlərinin dövrümüzədək gəlib çıxmasında məhz təbii coğrafi amil əsas rol oynayıb. Qobustanda aşkar edilmiş mağaralar və digər sığınacaqlar, memarlıq abidələri də sübut edir ki, bu yerlər sivilizasiyaların qovuşaraq yaratdığı mədəniyyətin beşiyi, yəni ilk insan məskənlərindəndir.

Manna və Atropatena dövlətlərinin mədəniyyət abidələri, müdafiə tikililəri - qalalar, yolüstü karvansaralar, o dövrün şəhərlərinin əzəmətli qala divarları, Urmiya gölü ətrafındakı sərdabaların tədqiqi göstərir ki, hələ altıncı yüzillikdə bu yerlərdə yaşayış mədəniyyəti o həddə çatıb ki, hətta eyvanlı evlər də tikilib. Yaxud həmin dövrün dini abidələrindən olan od məbədləri - bugünümüzədək gəlib çatan belə sərvətlər (Atəşgah) Azərbaycanın milli memarlığının inkişafında mühüm rol oynayıb. Atəşpərəstliyin yayılması ilə bağlı yaradılan ibadətgahlar islamdanəvvəlki dövrün məbədləri sayılır. Qafqaz Albaniyasının yadigarları da bir daha təsdiqləyir ki, şəhərsalma mədəniyyətinin təşəkkül tapmasının tarixi çox qədimlərə gedib çıxır. Qəbələnin möhkəm qala divarları, saxsı borularda şəhərə su çəkilməsi, Dəmirqapı keçidindəki müdafiə sistemi, Çıraqqala, Ləkit və Mingəçevirdəki məbədlər kompleksi, yaxud Sasanilər dövrü tarixini özündə qoruyub saxlayan müdafiə xarakterli abidələr də bunları söyləməyə əsas verir.

Təəssüf ki, tarixən bu kimi mədəniyyət nümunələri milli, məhəlli münaqişələrin qurbanlarına çevrilməkdən də sığortalanmayıb. Hər dövrün özü ilə gətirdiyi "səmum yeli" onların bir çoxunun daşını daş üstə qoymayıb. Ötən əsrin əvvəllərində və sonlarında ermənilərin məkrli, çirkin siyasəti nəticəsində yer üzündən silinən abidə və məbədlərimiz də az olmayıb. Erməni işğalçılarının talan etdiyi abidələr Azərbaycan xalqının tarixi və mədəniyyətinin zənginliyini və qədimliyini özündə əks etdirdiyi üçün belə qəddarcasına, vəhşicəsinə yer üzündən silinir, yaxud erməniləşdirilir. Təsadüfi deyil ki, dağıdılan, məhv edilən maddi mədəniyyət nümunələrinin arasında təkcə Şuşa, Laçın və Qubadlının rəsm qalereyaları deyil, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Kəlbəcərin ərazilərindəki, hətta muzeylərində qorunub saxlanan belə sərvətlər talan edilərək Ermənistana daşınmışdı.

Dəfələrlə yüksək tribunalardan səsləndirilsə də, ermənilər heç bir beynəlxalq qanunlara əməl etmirlər. Şuşa tarixən abidələr şəhəri kimi tanınıb. Lakin çox təəssüf ki, 1992-ci il may ayının 8-dən sonra bu qədim, ulu musiqi beşiyində xalqımıza məxsus maddi mədəniyyət nümunələri dağıdılıb. Orada "güllələnmiş heykəllərin fəryadı" isə beynəlxalq birlikdə, sadəcə, eşidilmədi. Erməni vandalizminin Azərbaycan ərazilərinə təkcə ötən əsrin doxsanıncı illərinin əvvəllərində təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya (6 memarlıq və 7 arxeoloji) və ölkə əhəmiyyətli muzey, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi - tarixi və mədəniyyət nümunələrini yerlə yeksan etməsi faktı artıq bir sıra beynəlxalq təşkilatların rəsmi sənədlərində də əksini tapıb. Keçmiş SSRİ-də yeganə sayılan Ağdamın Çörək, dünya şöhrətli, 13 mindən artıq nadir eksponatlı Kəlbəcər, Xocalı, Şuşa, Laçın, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarının tarix-diyarşünaslıq muzeyləri darmadağın edilib.

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın tarixi və mədəniyyət, eyni zamanda, dini abidələrinin barbarcasına dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası, eləcə də "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası ilə zidd olsa da, nədənsə beynəlxalq birlik belə "mədəni siyasət"in qarşısının alınmasında qəti mövqe göstərmir, bu vandalizmə ikili standartlarla yanaşır.

1983-cü ildə UNESCO-nun Beynəlxalq Abidələrin Mühafizəsi Assambleyasının təsis edilməsində də məqsəd diqqəti maddi mədəniyyət nümunələrinin və tarixi ərazilərin qorunmasına yönəltmək olub. Sivilizasiyalı bəşəriyyətin tarixi keçmişinin öyrənilməsində abidələr xüsusi əhəmiyyət daşıyır. Lakin minilliklərin yadigarları olan bu sərvətlər, təəssüf ki, heç də hamısı bugünümüzə gəlib çıxmayıb.

Maddi-mədəni irsin qorunması beynəlxalq əhəmiyyət kəsb etdiyindən onların mühafizəsi daim diqqət mərkəzindədir. Azərbaycan dövlətinin yürütdüyü siyasət nəticəsində respublika ərazisindəki mövcud tarixi, dini və mədəniyyət abidələrinin aşkar edilməsi və mühafizəsi istiqamətində çox böyük və məqsədyönlü layihələr həyata keçirilir. Bu işdə Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Məhz bu fondun reallaşdırdığı regional, yerli və beynəlxalq layihələr əsasında xalqımızın maddi-mənəvi sərvətlərinin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması xüsusi fəaliyyət proqramına çevrilib.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

● Memarlıq abidələri

# Danışan tarix



Azərbaycanda qeydiyyata alınmış dünya əhəmiyyətli memarlıq abidələri içərisində Qafqaz Albaniyası dövrünə aid Qax rayonu ərazisindəki Ləkit məbədi və Şabran rayonundakı Çıraqqala da var.

Ləkit abidəsi alban memarlığının ən gözəl nümunələrindən biridir. İnşaat texnikası baxımından mütəxəssislər məbədin inşa tarixini IV-VI əsrlərə aid edirlər. Ləkit məbədi Cənubi Qafqaz tetrakonxlarının təşəkkül tapması üçün əsas olmuşdur. Bura qədim zərdüşti məbədi əsasında yaradılmışdır. Onun elmi cəhətdən öyrənilməsi və bərpa işləri XX əsrin 40-cı illərində P.D.Baranovskinin rəhbərliyi ilə aparılmışdır. Məbədin ətrafı meşəlikdən təmizlənmiş və dağılmaqda olan divarlardan biri möhkəmləndirilmişdir. Buranın Albaniya hökmdarı III Mömin Vaçaqanın hakimiyyəti dövründə kilsəyə çevrildiyi güman edilir.



Çıraqqala Şabran rayonunun mərkəzindən təqribən 20-25 kilometr aralıda, Bakı şəhərindən isə 150 kilometr aralı Çıraqqaya adlanan sıldırım qayanın zirvəsində 1232 metr hündürlükdə inşa edilmiş qala-sədd sistemidir. Bura əsasən istehkam, qarovulxana məqsədilə Sasani hökmdarları tərəfindən IV-VI əsrlərdə tikilmişdir. O, Gilgilçay səddinin baş qarovulxanası olub, buradan geniş bir ərazini nəzarət altında saxlamaq və düşmənin gəlişini görüb tonqallar vasitəsilə ətrafa xəbər vermək üçün nəzərdə tutulmuşdur.

Abidə nisbətən alçaq bir kürsülük üzərində yüksələn səkkizbucaqlı piramidaşəkilli günbəzlə örtülüdür.



Beşbarmaq Xəzərsahili keçidini bağlayan üçüncü səddir. Gilgilçaydan cənubda Qafqaz silsiləsindən ayrılmış Beşbarmaq dağının sərt enişli ətəyindən başlayıb dənizsahili qumsallığacan uzanırdı.

Beşbarmaq, Gilgilçay səddi və Dərbənd - Azərbaycanın şimal-şərq sərhədlərində ilkin orta əsrlərdə çəkilmiş bu üç sədd dövrün istehkam tikintisinin yüksək inkişaf səviyyəsi ilə yanaşı, siyasi-hərbi durumunu da əks etdirir. Fərziyyəyə görə, onlar III-VII əsrlərdə (əvvəl Beşbarmaq, sonra Gilgilçay, axırda isə Dərbənd müdafiə səddi) çəkilmişdir. İnşaat texnikasına görə Beşbarmaq və Gilgilçay sədləri Dərbənd səddinə nisbətən qədimdir.



Şirvan-Abşeron memarlıq məktəbinin ən gözəl əsərlərindən biri olan və XIII əsrdə inşa edilmiş Bayıl qalası Xəzər dənizinin suyunun qalxıb-enməsi ilə zaman-zaman gah dənizin üzünə çıxır, gah da sulara qərq olaraq görünməz olur. Bayıl qəsrinin adanın biçiminə uyğun uzunsov planı var. Qalanın uzunluğu 180 metr, orta eni isə 35 metrdir. Qala divarları şərqdə 6, qərbdə isə 5 yarımdairəvi (Bakı qalasındakı kimi) bürclə möhkəmləndirilmişdir.

Bayıl qəsrinin tikintisi siyasi-hərbi baxımdan çox qarışıq bir çağda - monqol yürüşləri bütün Yaxın Şərqi lərzəyə gətirdiyi vaxtda (1234-1235-ci illərdə) başa çatmışdır. Ancaq sahilə yaxın adada tikilən bu möhtəşəm qəsrin ömrü çox qısa olmuşdur. Alimlərin fikrincə, o, 1306-cı ildə baş verən güclü zəlzələ nəticəsində dənizdə batmışdır.

***"Azərbaycan"***

● İçərişəhər

# Multan karvansarası

## Bura Azərbaycan-Hindistan mədəni-iqtisadi əlaqələrində mühüm rol oynamışdır



**Multan karvansarası Hindistandan Bakı və Abşerona gələn tacir və zəvvarlar tərəfindən XV əsrdə inşa olunmuşdur. Karvansara Abşeron atəşgahlarına ziyarətə gələn hind tacirləri, zəvvarları üçün bilavasitə sığınacaq rolunu oynamışdır.**

XV ərdə Bakıda, Şamaxıda, Təbrizdə və Azərbaycanın digər şəhərlərində hind tacirlərinin koloniyaları mövcud olmuşdur. Əsasən Şirvanda, Şamaxıda, Ərəşdə və digər yerlərdə istehsal olunan xam ipək alan hind tacirləri Azərbaycanda XV əsrdə və sonralar ticarət etmişlər.

Multan əvvəllər Hindistanda, hazırda isə Pakistanda yerləşən bir orta əsr şəhəridir. Karvansaranın bu adı alması multanlı atəşpərəst zəvvarların Bakıya daha çox gəlmələri ilə əlaqədardır. Onların Suraxanıdakı "Atəşgah" məbədini də tikdirdikləri məlumdur.

Multandan gələn zəvvarlar qaradərili, arıq, cılız olub paltar geyməz, yalnız bədənlərinin bəzi yerlərini ağ rəngli parça ilə örtərdilər. Onlar az yeyər, atəşə səcdə edib müəyyən ayinlər yerinə yetirər və od qarşısında dua edərdilər.

Bəzi tədqiqatçılar güman edirlər ki, Multan karvansarası qədim tarixi vərəsəlik üzrə Sasanilər dövründə zərdüştilik zamanında tikilmişdir. Çünki təsəvvür etmək çətindir ki, hansısa yeni bir tikiliyə islam dininin hökmranlığı dövründə bütpərəstlik və ya atəşpərəstlik adı verilə biləydi.

Orta əsrlərdə karvansaraya gələn tacirlər öz heyvanlarını yerləşdirdikdən sonra pilləkənlə yuxarı - qonaq otaqlarına qalxarmışlar. Bu pilləkən ikinci mərtəbənin həyətinə çıxır. Vaxtilə karvansaranın 20-dən çox qonaq otağı olub. Hazırda həyətdə 10 qonaq otağı mövcuddur. Otaqlar da öz memarlıq əhəmiyyətini və qədimliyini hələ də olduğu kimi qoruyub saxlayır.

XIV əsrin sonlarında Orta Asiyadan gələn tacirlər tərəfindən inşa edilən Buxara karvansarası ilə üzbəüz yerləşən Multan karvansarasının portalı şəhərin əsas ticarət yoluna baxır. Hər iki karvansaranın portalının üzbəüz yerləşməsində əsas məqsəd Orta Asiyadan gələn bir neçə dövlətin tacirlərinin bir-biri ilə əlaqələr qurub, beynəlxalq ticarətin canlanmasına şərait yaratmaq idi.

Abidə qismən köhnə tikililər üzərində ucaldılmışdır. Son orta əsrlərdə İçərişəhərdəki zorxanalardan biri olan yeraltı tağtavanlı bina Multan karvansarasının altında yerləşirdi. Onun qapısı Qız qalası meydanı tərəfə açılırdı. XVIII əsr səyahətşünaslarının verdiyi məlumata görə, 300-ə yaxın tamaşaçı yerləşən bu zorxana 1893-cü ildə çar Rusiyası tərəfindən bağlanmışdı.

### Arxeoloji qazıntılar nə deyir?..

1924-cü ildə arxeoloq V.M.Sısoyev tərəfindən Qız qalasının yanında aparılan qazıntı nəticəsində şimal tərəfə - Multan karvansarasının altına gedən yeraltı yolun qalıqları üzə çıxarılmışdı. 1982-ci ildə İçərişəhərin şərq tərəfində keçirilən genişmiqyaslı arxeoloji qazıntılar nəticəsində aşkar edilən yeraltı yol da orta əsrlərdə Bakının həm mərkəzi ticarət küçəsi sayılan Şamaxı Qala qapısından başlayıb Salyan darvazasına doğru gedən baş küçənin şərq istiqamətində yer alır. Maraqlıdır ki, yolun xətti XIV əsrdə tikilmiş Multan karvansarasının altından keçərək Qız qalasına doğru gedir. Burada aşkar olunan tünglərin bir-birinə geydirilmiş hissələri (xarici tərəfi və divarının xarici) əhəng məhlulu ilə möhkəmləndirilmişdir. Saxsı tünglər və novçalar üzərində dulusçu çarxının izləri aydın görünür. 1982-ci ildə karvansaranın ərazisində genişmiqyaslı arxeoloji qazıntılar aparılmış və xeyli miqdarda qədim və orta əsrlərə aid artefaktlar aşkarlanmışdır. Məlum olmuşdur ki, karvansara daha qədim tikinti üzərində yerləşir və onun vaxtilə böyük həyəti, hətta dəniz tərəfdən də girişi olmuş, son bərpa işləri zamanı həyətin yarı hissəsindən çoxu kəsilmişdir.

> Karvansara səyyahların, yazıçıların, rəssamların, alimlərin diqqətini cəlb edib. Multan karvansarasında Mendeleyev, Vereşşagin, Düma ata və bir çox səyyahlar olub. Xüsusilə Düma ata gördüklərindən çox heyrətlənib. O, "Qafqaz səfəri" adlı əsərində Bakıdakı Multan karvansarasını və Suraxanıdakı atəşgahı çox gözəl təsvir edib.

Karvansaranın memarlıq planlaşdırma quruluşu perimetr üzrə həyəti əhatə edən eyvanlardan, onların arxasında yerləşən fərdi yaşayış üçün nəzərdə tutulmuş ayrıca otaqlardan ibarətdir. Bu da, öz növbəsində, onun Buxara karvansarasına üslubca yaxın olduğunu sübut edir.

Abidənin əsas inşaat materialı Şirvan-Abşeron memarlıq məktəbi üçün ənənəvi olan xırda bloklar və tikinti daşı kimi istifadə olunan xırda, dənəvər əhəngdaşıdır. Tikilinin özülünü təbii formada istifadə olunmuş qaya massivi təşkil edir. Daha qədim olan yeraltı otaqların tağtavanları mürəkkəb əhəng məhlulunda olan düzgün formalı tikinti daşı ilə hörülmüşdür.

Tikilinin aşağı mərtəbəsi yerin altında yerləşir. Üç böyük zaldan ibarət olan tacirlərin satacaqları malları və heyvanları saxlamaq üçün nəzərdə tutulan alt mərtəbənin üç qapısı var. Tacir öz heyvanlarını yalnız dənizə tərəf açılan qapıdan zirzəmiyə daxil edə bilərdi. Bunun özü də səbəbsiz deyil. Belə ki, dəniz tərəfdən İçərişəhərə daxil olanda yol yuxarı qalxdığından salonun digər qapısından yalnız tacirlər pilləkənlə yuxarı, yəni qonaq otaqlarına qalxa bilərdilər. Alt mərtəbənin digər zalının qapısı Qız qalasına açılır. Karvansarada "Sim-sim" adlanan zalın eyniadlı qapısı da qeyri-adi təsir bağışlayır.

Karvansara XVII əsrdə Bakıda Səfəvilər hakimiyyəti dövründə bərpa edilmiş və binanın bir hissəsi zorxana kimi fəaliyyət göstərmişdir. Son dəfə abidə 1973-1974 və 1976-cı illərdə bərpa olunmuşdur.

### Karvansara əcnəbi səyyahların gözü ilə

1647-ci ilin fevral ayında Bakıya birinci səfəri zamanı türk səyyahı Övliya Çələbi Multan karvansarası haqqında müfəssəl və maraqlı məlumat vermişdir.

1683-1684-cü ilin yanvar ayının 6-da Bakıda olan alman səyyahı Engelbert Kempfer Multan karvansarasını çox gözəl təsvir edir. O öz yol qeydlərində (manuskript) icazə kağızı olmadığı üçün Bakıya girərkən həbs olunduğunu və bir müddət Multan karvansarasının zirzəmisində saxlandığını yazır. E.Kempfer burada keçirdiyi vaxt ərzində karvansaranın daxili interyeri, burada görüşdüyü insanlar haqqında unikal informasiyalar verir.

Karvansara səyyahların, yazıçıların, rəssamların, alimlərin diqqətini cəlb edib. Multan karvansarasında Mendeleyev, Vereşşagin, Düma ata və bir çox səyyahlar olub.

Xüsusilə Düma ata gördüklərindən çox heyrətlənib. O, "Qafqaz səfəri" adlı əsərində Bakıdakı Multan karvansarasını və Suraxanıdakı atəşgahı çox gözəl təsvir edib.

Karvansaranın divarlarında qədim Azərbaycan xalçaları, bəzək əşyaları, kilimlər, qədim Bakını təsvir edən rəsmlər, bura gələn tanınmış qonaqların fotoları asılıb. Burada isə əsas məqsəd karvansaraya gələn əcnəbilərdə Azərbaycanın qədim və zəngin tarixi, habelə Azərbaycan və Pakistan arasında öz qloballığı və regional məsələlərin oxşarlığı ilə xarakterizə edilən əlaqələr haqqında təsəvvür yaratmaqdır.

2004-cü il 8-10 iyul - Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf Azərbaycana rəsmi səfər etmişdi. "Sim-sim" zalının girişindəki kiçik dəhlizdə diqqəti çəkən mənzərə Pakistan Prezidenti Pərviz Müşərrəfin, eləcə də Pakistanın Azərbaycandakı səfirliyi tərəfindən karvansaraya bağışlanılan hədiyyələrdir. Hədiyyələr - keramik stolüstü lampa, keramik gül vazası, keramik kasa və piyalə, keramik boşqab, su qazanı, gül vazası, çay dəsti, qazança, ağzı açıq qazan, ətrafı zəngin haşiyəli güzgü və digər əşyalardan ibarətdir.

Multan karvansarası 1970-ci illərdən Buxara karvansarası ilə birlikdə "Restoran-karvansara kompleksi" adı altında fəaliyyət göstərir. Hazırda dövlət tərəfindən ölkə əhəmiyyətli memarlıq abidəsi kimi qorunur.

***Kamil İBRAHİMOV,***
***professor***

# Paytaxtda mühüm yenilik

## Bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması yeni konsepsiya ilə həyata keçiriləcək






Bakı Şəhər İcra Hakimiyyətinin sifarişinə əsasən Böyük Britaniyanın tanınmış Mott MacDonald şirkəti tərəfindən Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması konsepsiyası hazırlanır. Bununla əlaqədar şirkətin nümayəndələri növbəti dəfə paytaxtımıza gəlmişlər. Onların apardıqları araşdırmaların nəticələri konsepsiyanın hazırlanmasında əsas götürülmüşdür.

Mott MacDonald şirkətinin rəhbərlərinin bildirdiyinə görə Bakı mürəkkəb landşafta, küləkli hava şəraitinə və böyük əraziyə malik olmasına baxmayaraq şəhərin sanitar təmizliyi normal səviyyədədir. Buna baxmayaraq, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən paytaxtda bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması ilə bağlı islahatların aparılması üçün bu sahədə böyük təcrübəsi olan Böyük Britaniya Mott MacDonald şirkətinə müraciət olunmuş və onun mütəxəssisləri yeni islahatlar konsepsiyasının hazırlanmasına başlamışlar. Əsas məqsəd paytaxt Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması işlərini aparıcı Avropa dövlətlərinin mərkəzi və iri şəhərləri səviyyəsinə çatdırmaq, paytaxtımızı gözəl məkana çevirməkdir.

Konsepsiya çərçivəsində artıq 3 aya yaxındır ki, Bakı şəhərində işlər gedir, 4 rayonda (Səbail, Nərimanov, Yasamal və Nəsimi) məişət tullantıları üçün yeni müasir konteynerlər qoyulub, daha 3 rayona (Binəqədi, Nizami və Xətai) bu konteynerlərin verilməsinə başlanılıb.

Həyata keçirilən işlər çərçivəsində Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən həmin şirkətin təqdim etdiyi layihə əsasında Monitorinq Mərkəzi yaradılmışdır. Mərkəzdə işçi qrup tərəfindən konsepsiyanın hazırlanması və həyata keçirilməsi ilə bağlı nəzərdə tutulan işlərin görülməsi üçün ən müasir şərait yaradılıb.

Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən yaradılmış Monitorinq Mərkəzində Böyük Britaniya Mott MacDonald şirkəti rəhbərliyinin səlahiyyətli nümayəndəsi, Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması üzrə islahatlar konsepsiyasının rəhbəri Martin Saymon ictimaiyyət və mətbuat nümayəndələrinə konsepsiya barədə geniş məlumat vermiş və jurnalistləri maraqlandıran çoxsaylı sualları cavablandırmışdır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Bakıda Kubanın Havana şəhərinin 500 illiyi ilə bağlı fotosərgi açılıb



Bakı Fotoqrafiya Evində "Havana 500 il" adlı fotosərginin açılışı olub.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bakı Fotoqrafiya Evi və Kuba Respublikasının ölkəmizdəki səfirliyi tərəfindən keçirilən sərgi bu il 500 yaşını qeyd edən Kubanın paytaxtı Köhnə Havana şəhərinə həsr edilib.

Tədbirdə çıxış edən Kubanın Azərbaycandakı səfiri Alfredo Fidel Nieves Portuondo Havana şəhərinin 500 illiyinin Bakıda, İçərişəhərdə qeyd edilməsinin məmnunluq doğurduğunu bildirib. "Bu gözəl gecədə azərbaycanlı dostlarımızla bir yerdə olmaqdan şadıq", - deyən səfir vurğulayıb ki, belə tədbirlər xalqları bir-birinə daha da yaxınlaşdırır və onlar sanki bir-birilərini kəşf edirlər.

İçərişəhər Muzey Mərkəzinin direktoru Əminə Məlikova deyib: "Bu gün biz çox maraqlı bir sərgi ilə tanış oluruq. Sərgidə təqdim olunan 30 fotoşəkil məşhur kubalı fotoqraf Vladimir Molina Espada tərəfindən çəkilib". Diqqətə çatdırılıb ki, Vladimir Molina ali təhsilini Matansas Universitetində alıb, "Combate News", ICRT-də fotomüxbir kimi çalışıb. Hazırda "Prensa Latina"da fotojurnalist kimi çalışan Espada, eyni zamanda, müxtəlif beynəlxalq tədbirləri işıqlandırır.

Sərgi aprelin 23-dək davam edəcək.

***AZƏRTAC***
***Foto A.MƏMMƏDOVUNDUR***

## "Azərsu" ASC polietilen boru və fitinqlərin satın alınması məqsədilə *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir.**
LOT-1. Polietilen boruların satın alınması.
LOT-2. Polietilen fitinqlərin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:
- aşağı qiymət, yüksək keyfiyyət, təcrübə və maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs - Hikmət Qasımovdan, 431-47-67/2249) ala bilərlər.

Hər bir LOT üçün iştirak haqqı 200 manatdır.

**Təşkilat - "Azərsu" ASC**
**VÖEN - 9900001751**
**Bank - "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod - 200112**
**VÖEN - 9900003611**
**M/h - AZ37NABZ 01350100000000001944**
**SWIFT. BIK - AİİBAZ2X**
**H/h - AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olub- olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulan digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **23 may 2019-cu il saat 18.00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **31 may 2019-cu il saat 16.00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **03 iyun 2019-cu il saat 16.00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən 16.04.2019-cu il tarixdən etibarən "Sadə" tarif paketi abunəçilərin istifadəsinə təqdim olunur. Tarif çərçivəsində abunəçilərə 2 AZN müqabilində həftəlik istifadə üçün nəzərdə tutulan 150 şəbəkəiçi dəqiqə və 150 şəbəkəiçi sms, 6 AZN müqabilində aylıq istifadə üçün nəzərdə tutulan 500 şəbəkəiçi dəqiqə və 500 şəbəkəiçi sms əldə etmə imkanı verilir. Beləliklə, yeni tarifin təqdim etdiyi imkanların aktuallığını nəzərə alaraq, 23.05.2019-cu il tarixdən etibarən fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün "Kombo" tarif paketinə qoşulma dayandırılacaq. Həmin tarif paketindən istifadə edən nömrələr isə müvafiq şərtlərdən yararlanmaqda davam edə biləcək.

**Qeyd:** *Abunəçilər müvafiq Paketlərin sifarişi və istifadə şərtləri, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.*

## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

**Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş 15.01.2019-cu il tarixli 890 saylı Sərəncama əsasən "Gəncə və Şəki şəhərlərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Azərbaycan tərəfinin payı hesabına Gəncə şəhəri ərazisində su və kanalizasiya sistemlərinin tikintisi tamamlanmış və hazırda inşası davam edən küçə və yolların asfalt örtüyünün tam eni boyunca salınması işlərinin satın alınması məqsədilə**

***təkliflər sorğusu elan edir***

Təkliflər sorğusunda iştirak etmək istəyən iddiaçılar aşağıdakı ünvana müraciət edə bilərlər: Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Tikilməkdə olan obyektlərin müdiriyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsi (əlaqələndirici şəxs: İlqar Tağıyev və İntizam Novruzov, **i.tagiyev@azersu.az;** və **intizam.novruzov@azersu.az** +99412 431 47 67, dax.1033 və 3019).

İddiaçılar imzalanmış və möhürlənmiş təkliflərini 01 may 2019-cu il saat 16:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan təkliflər baxılmadan geri qaytarılacaqdır.

Təkliflər "Azərsu" ASC, Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda 02 may 2019-cu il saat 16:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 07 fevral 2019-cu il tarixdə elan edilmiş "20 dəst kommutasiya L3 Switch Huawei- S6720S-26Q-EI-24C-DC və 600 ədəd SFP avadanlığının satın alınması" üzrə açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "Muğan Ticarət Təchizat" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Muğan Ticarət Təchizat" MMC arasında "20 dəst kommutasiya L3 Switch Huawei-S6720S-26Q-EI-24C-DC və 600 ədəd SFP avadanlığının satın alınması" üzrə 09 aprel 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Notr-Damın bərpası 1 milyard avroya başa gələcək



Fransanın paytaxtı Parisdə yanmış Notr-Dam kilsəsinin bərpasına təxminən 1 milyard avro lazım olacaq. Bu rəqəmi "France İnter" radiostansiyasının efirində aparıcının sualına cavab verərkən tanınmış fransız memarı Jan-Mişel Vilmott səsləndirmişdir.

Memarın dediyinə görə, ən çox vəsait qüllənin, dam örtüyünün və daxili interyerin bərpasına sərf olunacaq. Eyni zamanda Vilmott ümidvar olduğunu bildirmişdir ki, bərpa laqeyd olmayan vətəndaşların ianələri hesabına həyata keçiriləcək.

Xatırladaq ki, aprelin 15-də kilsədə baş vermiş yanğın binanın dam örtüyünü, qülləsini və digər konstruksiyalarını praktiki olaraq məhv etmişdir. Yanğının mümkün səbəblərindən biri kimi elektrik xəttində nasazlıq göstərilir.

## Tarixdə ən irimiqyaslı seçkilər başa çatdı




İndoneziyada Prezident, parlamentin iki palatası, habelə yerli hakimiyyət orqanları deputatlarının seçkiləri üzrə səsvermə başa çatmışdır. Bu barədə TASS agentliyi xəbər verir.

Bu, təkcə İndoneziyada deyil, həm də bütün dünyada ən irimiqyaslı seçki olmuşdur. Birbaşa səsvermə ilə təkcə dövlət başçısı deyil, həm də 16 siyasi partiyanı təmsil edən təxminən 20 min qanunverici seçilmişdir.

Ali dövlət vəzifəsinə iki namizəd var idi: hazırkı Prezident Coko Vidodo və ehtiyatda olan general Prabovo Subianto. Konstitusiyaya görə, onlarla birlikdə vitse-prezidentlər də seçilir. Dünyada ən böyük müsəlman təşkilatlarından biri - təxminən 80 milyon üzvü olan "Nəhzə əl-üləma"nın sabiq rəhbəri, 75 yaşlı Məruf Amin ölkənin hazırkı lideri ilə siyasi ittifaqa girmişdir. Onun rəqibi ölkənin ən varlı adamlarından biri olan 49 yaşlı biznesmen Sandiaqom Unodur.

Mərkəzi Seçki Komissiyası aprelin 25-də səsvermənin rəsmi nəticələrini açıqlayacaq.

## Pakistanda daşqınlar: azı 39 nəfər həlak oldu



Pakistanda leysan yağışlarının törətdiyi daşqınlar nəticəsində azı 39 nəfər həlak olmuşdur. Bu barədə Təbii Fəlakətlərin Fəsadlarının Aradan Qaldırılması İdarəsi məlumat vermişdir.

Təbii fəlakət ucbatından Xayber-Paxtunxva və Belucistan əyalətlərində iki gün ərzində onlarla adam həlak olmuşdur. Hakimiyyət orqanları daşqınların daşınmaz əmlaka və əkinlərə vurduğu böyük maddi ziyan barədə məlumat vermişdir.

Sinoptiklərin proqnozuna görə, ölkədə yağışlar hələ iki gün davam edəcək.

## İrandan Azərbaycana qaçaqmalçılıq yolu ilə 16 kiloqrama yaxın narkotik vasitənin keçirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları narkotik vasitələrin dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə keçirilməsinin qarşısını alıblar.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Sım kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycana doğru hərəkət edən 2 nəfər naməlum şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə edilib. Sərhəd naryadının "dayan" əmrinə tabe olmayan sərhəd pozucularına qarşı silahdan havaya xəbərdarlıq məqsədilə atəş açılıb, lakin sərhəd pozucuları əllərindəki əşyaları əraziyə ataraq geriyə qaçıblar.

Həmin ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilib, 1 ədəd bel çantası və 1 ədəd torbada ümumi çəkisi 15 kiloqram 815 qram olan narkotik vasitə və 1 ədəd Kanada istehsalı olan gecəgörmə cihazı aşkarlanaraq götürülüb.

Qeyd olunan fakt üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

## Atəşkəs rejimi 21 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tərtər rayonunun işğal altında olan Göyarx, Füzuli rayonunun Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

"Nərmin 93" firması (VÖEN: 2000463221) fəaliyyətini dayandırdığını elan edir. Firma ilə bağlı bütün iddialar elan dərc edildiyi gündən 10 gün ərzində qəbul olunur.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kürdəmirdən Müseyib Bayramov Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi akademik Əhliman Əmiraslanova və Həmid Bağırova əzizləri

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov və universitetin professor-müəllim heyəti Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9003
Sifariş 1254
Qiyməti 40 qəpik